## Şuşada iki nəfər minaya düşərək ölüb



**Şuşanın Daşaltı kəndində iki nəfər minaya düşərək ölüb.**

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan "Şərq"ə verilən məlumata görə, dekabrın 9-da səhər saat 9 radələrində Şuşa rayonunun Daşaltı kəndi ərazisində bərpa və quruculuq işləri ilə məşğul olan şirkətlərin əməkdaşları - İsmayıllı rayon sakini Vüsal Qəndiyev və Qobustan rayon sakini Orxan Xanatov xidməti işlərini yerinə yetirərkən erməni hərbi birləmələri tərəfindən basdırılmış mina partlaması nəticəsində həlak olublar.

## Üç Türkiyə hərbçisi həlak olub

Zərbələr nəticəsində 6 terrorçu zərərsizləşdirilib



**Türkiyə Silahlı Qüvvələrinin İraqın şimalında həyata keçirdiyi antiterror əməliyyatı zamanı 3 Türkiyə hərbçisi həlak olub.**

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi bildirib. Qeyd olunub ki, hərbçilərin ölümündən sonra bölgədə müəyyən edilən ərazilərə hava zərbələri endirilib. Zərbələr nəticəsində 6 terrorçu zərərsizləşdirilib. Bölgədə əməliyyatlar davam etdirilib.



## "Azərbaycanda hələlik "Omicron" ştamına rast gəlinməyib"

ÜST nümayəndəsi: Tibbi maskaların, sosial məsafənin saxlanılması və vaksinasiyanın faydası görülməkdədir"

**"5-14 yaş arası uşaq və yeniyetmələr arasında "Delta-M" və "Omicron" ştamlarına yoluxma halları artıb. Azərbaycanda hələlik "Omicron" ştammına rast gəlinməyib".**

Bunu Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı dünən Gəncə İcra Hakimiyyətində keçirilən görüşdə deyib. Gəncə İH-dən APA-ya verilən məlumata görə, ÜST nümayəndəsi COVID-19-la mübarizə çərçivəsində Gəncə şəhərində görülən işləri təqdirəlayiq hesab etdiyini bildirib.

(səh.2)


❒ № 226 (5508), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az

10 dekabr 2021-ci il (cümə)




## Prezident İlham Əliyev Almaniyanın yeni Kanslerini təbrik edib

**Azərbaycan Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının Federal Kansleri Olaf Şoltsa təbrik məktubu ünvanlayıb.**

*Təbrik məktubunda deyilir:*

"Hörmətli cənab Federal Kansler,

Almaniya Federativ Respublikasının Federal Kansleri kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi səmimiyyətlə təbrik edir və ən xoş arzularımı yetirirəm.

Biz Azərbaycan ilə Almaniya arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin inkişafına xüsusi əhəmiyyət veririk. Siyasi, iqtisadi və mədəni sahələrdə səmərəli əməkdaşlığımız dövlətlərarası münasibətlərimizi səciyyələndirən mühüm amillərdəndir.

İnanıram ki, gələn il diplomatik əlaqələrin qurulmasının 30 illiyini qeyd edəcək ölkələrimiz arasında münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Almaniya xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm".

## Zakir Həsənov Türkiyəyə başsağlığı verib



**Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov İraqın şimalında 3 türk hərbçisinin şəhid olması ilə bağlı Türkiyəyə başsağlığı verib.**

"Şərq" xəbər verir ki, bununla bağlı Müdafiə Nazirliyinin "Twitter" hesabındakı paylaşımda qeyd edilib.

""Pençe-Yıldırım" əməliyyat zonasında xaincəsinə həyata keçirilən terror hücumu nəticəsində şanlı türk ordusunun 3 hərbi qulluqçusunun şəhid olması xəbəri məni dərindən kədərləndirdi. Sizin acınız bizim də acımızdır! Allah rəhmət eləsin!", - paylaşımda deyilir.

# Brüssel görüşü öncəsi yenə şəhid verdik

## Ermənistandakı revanşist qüvvələr vəziyyəti yenidən gərginləşdirməyə çalışır, hərbi təxribatlara əl atırlar



"Sərhəd təxribatları sayəsində kənar oyunçuları prosesə cəlb etməyə cəhd göstərirlər"

**Ermənistan Azərbaycanla sərhədin Kəlbəcər rayonu istiqamətində növbəti dəfə atəşkəsi pozaraq təxribat əl atıb. Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən müvafiq tədbirlər nəticəsində qarşı tərəf susdurulub. Təxribat nəticəsində hərbi qulluqçumuz, əsgər Asif Əliyev şəhid olub.**

Müdafiə Nazirliyi bəyan edib ki, sərhəddə baş vermiş növbəti gərginliyə görə, bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Göründüyü kimi, dekabrın 15-də Brüsseldə gözlənilən görüş ərəfəsində Ermənistandakı revanşist qüvvələr vəziyyəti yenidən gərginləşdirməyə çalışır, hərbi təxribatlara əl atırlar.

(səh.4)



## Şuşada məktəbin tikintisinə başlanılacaq

**Şuşada 1 nömrəli məktəbin layihələndirmə işləri yekunlaşıb və tikintiyə başlanılacaq.**

Bunu təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında deyib.

"Ağdam və Cəbrayılda layihələndirmə prosesi başlayıb. Prosesin 2022-ci ilin sonuna qədər bitməsi gözlənilir. Yaqin ki yaxın zamanlarda Füzuli şəhərində də məktəb tikintisi ilə bağlı addımların atılması gözlənilir. Bu çox ciddi və böyük prosesdir. Həmin bölgələrdəki məktəb layihələri ən yaxşı layihələrdir. Həm Ağdam, həm də Şuşa məktəbi arxitektur inşaat xüsusiyyətlərinə görə ən müasir məktəblərimizdən olacaq".

# Kremldən çağırış

Bakı və İrəvan tezliklə sərhədlərin delimitasiyası üzrə komissiyanı formalaşdırmalıdır



**Sərhədin delimitasiyası üzrə komissiyanın tərkibində Azərbaycanla Ermənistanın nümayəndə heyətlərinin tezliklə formalaşmasını gözləyirik.**

Bunu Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova brifinq zamanı deyib.

"Ən yüksək səviyyədə Soçi razılaşmaları Azərbaycan və Ermənistanın normallaşmaya doğru addımlara hazır olduğunu təsdiqləyir. Həm Bakı, həm də Yerevanla təmaslarda biz razılaşmaların ardıcıl reallaşdırılması, o cümlədən sərhədyanı mübahisələrin tənzimlənməsi, Cənubi Qafqazda nəqliyyat əlaqələrinin açılması üzərində işləyirik.

(səh.2)

## Azərbaycanın Ermənistana qaytardığı 10 erməni hərbçidən 5-i tutulub



**Ermənistanın hüquq-mühafizə orqanları Azərbaycanın qaytardığı 10 hərbçidən beşini saxlayıb.**

APA-nın xəbərinə görə bu barədə "Sputnik Armenia" Ermənistan İstintaq Komitəsinin mətbuat katibi Vardan Tadevosyana istinadla məlumat yayıb.

"Hazırda 5 hərbçi hərbi xidmətkeçmə və döyüş növbətçiliyi qaydalarının ağır nəticələrə səbəb olan pozulması ittihamı ilə saxlanılıb. Onların həbs edilməsi üçün məhkəməyə təqdimat verilib", deyə Tadevosyan əlavə edib.

*Qeyd edək ki, Azərbaycan Respublikası humanizm prinsiplərini əsas tutaraq 4 dekabr 2021-ci il tarixdə 10 nəfər erməni əsilli hərbi qulluqçunu Ermənistan tərəfinə təhvil verib. Dövlət Təhlükəsizliyi Xidmətindən APA-ya verilən məlumata görə, təhvil verilmiş şəxslər 16 noyabr 2021-ci il tarixində Ermənistan silahlı qüvvələri tərəfindən dövlət sərhədinin Kəlbəcər istiqamətində törədilən təxribatın qarşısı alınarkən saxlanılıblar.*

## Son sutkada 1315 nəfər COVID-19-a yoluxub

19 nəfər vəfat edib, 1850 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1315 yeni yoluxma faktı qeydə alınıb, 1850 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 19 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 601028 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 571088 nəfər müalicə olunaraq sağalıb, 8038 nəfər vəfat edib, aktiv xəstə sayı 21902 nəfərdir.



## 30 ildə "Əkinçi" qəzetinə 30 qəpik də ayrılmayıb

Baş redaktor İsaməddin Əhmədov: "Redaksiyaya bir dənə də olsun texniki avadanlıq verilməyib"

(səh.5)



## "Çoxlu xəyallarımız vardı, gerçəkləşdirə bilmədik"

Xüsusi təyinatlı şəhidimizin xanımı o səksəkəli günlərindən danışdı

(səh.6)

# Azərbaycan Almaniyanın yeni hökuməti ilə əməkdaşlığı davam etdirəcək

## Ceyhun Bayramov bölgədə mövcud olan ən son vəziyyət barədə Almaniya səfirinə məlumat verib




**Dünən xarici işlər naziri Ceyhun Bayramov Almaniya Federativ Respublikasının Azərbaycan Respublikasındakı səfiri Volfqanq Maniqi qəbul edib.**

Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən "Şərq"ə verilən xəbərə görə, Almaniyada yeni hökumətin formalaşdığını və yeni kanslerin seçildiyini qeyd edən səfir Volfqanq Maniq Azərbaycan ilə münasibətlərin möhkəmlənməsinə önəm verildiyini bildirib.

O, iki ölkə arasında, xüsusilə enerji sahəsində münasibətlərin strateji əhəmiyyət kəsb etdiyi vurğulanıb. Almaniyada yeni hökumətin alternativ enerjiyə keçmək ilə bağlı məqsədlərindən bəhs edən səfir, təbii qazın bu xüsusda keçid enerjisi rolunda çıxış etdiyini söyləyib. Səfir, qarşıdan gələn il təşkil olunacaq "Berlin Enerji Keçidi Dialoqu" tədbiri barədə məlumat təqdim edib.

Nazir Ceyhun Bayramov Almaniyada yeni Kanslerin seçilməsi və yeni hökumətin formalaşması ilə bağlı təbriklərini səfirin diqqətinə çatdırıb. O, iki ölkə arasında dostluq və yüksək səviyyəli əməkdaşlıq münasibətlərinin yeni hökumət ilə də davam etdiriləcəyinə ümid ifadə edib. Azərbaycanın Avropa, o cümlədən Almaniyanın enerji sahəsində etibarlı tərəfdaşı olduğunu vurğulayan nazir, yaşıl enerji və iqlim məsələlərinin Azərbaycan hökumətinin gündəliyində duran əsas məsələlərdən olduğunu söylədi. Nazir, azad olunmuş Qarabağ ərazisinin dövlət rəhbəri tərəfindən yaşıl enerji zonası elan edildiyini Almaniya səfirinin diqqətinə çatdırıb.

Nazir Ceyhun Bayramov, həmçinin bölgədə mövcud olan ən son vəziyyət, o cümlədən Ermənistan ilə münasibətlərin normallaşması istiqamətində Azərbaycan tərəfindən atılan addımlar barədə Almaniya səfirinə məlumat verib. Ermənistanın bu addımlara hələ də, qarşılıq vermədiyi, eyni zamanda təxribatçı addımlarını davam etdirərək bölgədə sülhün təmin olunması prosesinə xələl gətirdiyi qeyd edilib.

Görüşdə tərəflər, münaqişə sonrası mərhələdə bölgədə sülh və təhlükəsizliyin təmin olunması, habelə qarşılılıq maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıb.

**İsmayıl**



**Prezident İlham Əliyev 2022-ci ildə növbəti "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı tədbirlər və "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyul tarixli 1354 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam verib.**

# Təşkilat Komitəsinin tərkibi müəyyənləşib

## "Yüksəliş" müsabiqəsinin gələn il də keçirilməsi üçün bir milyon manat ayrıldı

Sərəncama əsasən, 2022-ci ildə növbəti "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı cari işlərin görülməsi üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 1.000.000 (bir milyon) manat ayrılır.

- Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan maliyyələşməni təmin edəcək.

- Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyul tarixli 1354 nömrəli Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

- "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyul tarixli 1354 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1293) 2-ci hissəsi ilə yaradılmış Təşkilat Komitəsinin tərkibi aşağıdakı redaksiyada verilir:

**"Təşkilat Komitəsinin sədri**

Fərəh Əliyeva - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri

**Təşkilat Komitəsinin üzvləri**

Anar Ələkbərov - Azərbaycan Respublikası Prezidentinin köməkçisi

Fərid Qayıbov - Azərbaycan Respublikasının gənclər və idman naziri

Mikayıl Cabbarov - Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Emin Əmrullayev - Azərbaycan Respublikasının təhsil naziri

Ceyhun Bayramov - Azərbaycan Respublikasının xarici işlər naziri

Sahil Babayev - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

Məleykə Abbaszadə - Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri

Ülvi Quliyev - Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Balakişi Qasımov - İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru."

# Kremldən çağırış

## Bakı və İrəvan tezliklə sərhədlərin delimitasiyası üzrə komissiyanı formalaşdırmalıdır

**"Sərhədin delimitasiyası üzrə komissiyanın tərkibində Azərbaycanla Ermənistanın nümayəndə heyətlərinin tezliklə formalaşmasını gözləyirik."**

Bunu Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova brifinq zamanı deyib.

"Ən yüksək səviyyədə Soçi razılaşmaları Azərbaycan və Ermənistanın normallaşmaya doğru addımlara hazır olduğunu təsdiqləyir. Həm Bakı, həm də Yerevanla təmaslarda biz razılaşmaların ardıcıl reallaşdırılması, o cümlədən sərhədyanı mübahisələrin tənzimlənməsi, Cənubi Qafqazda nəqliyyat əlaqələrinin açılması üzərində işləyirik. Bu il noyabrın 26-da Soçidə razılaşdırıldığı kimi dövlət sərhədinin delimitasiyası, sonradan tərəflərin sorğusu əsasında Rusiya Federasiyasının məsləhət yardımı ilə sərhədin demarkasiyası üzrə ikitərəfli komissiya yaradılmasında doğru addımlamaq vacibdir. Biz həm də tərəflərin komissiyanın tərkibində nümayəndə heyətlərinin tezliklə formalaşdırılmasını gözləyirik. Üçtərəfli işçi qrupu çərçivəsində bütün iqtisadi və nəqliyyat əlaqələrinin açılması üzrə səylər də davam etdirilir", - deyə M.Zaxarova bildirib.



Rusiya Azərbaycan və Ermənistan liderlərinin Brüssel görüşündən gözləntisini açıqlayıb

"Rusiya ümid edir ki, Azərbaycan və Ermənistan liderlərinin dekabrın 15-də Brüsseldə keçiriləcək görüşünün yekununda üçtərəfəli razılaşmaların reallaşdırılmasına sadiqlik ifadə olunacaq."

Bunu da Mariya Zaxarova brifinq zamanı deyib.

"Biz Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasına yönəlmiş istənilən səyləri alqışlayırıq. Biz Azərbaycan və Ermənistan liderləri arasında müntəzəm təmasların davam etməsini vacib hesab edirik və həqiqətən də hesab edirik ki, Azərbaycan və Ermənistan liderlərinin dekabrın 15-də Brüsseldə keçiriləcək görüşünün yekununda üçtərəfəli razılaşmaların reallaşdırılmasına sadiqlik ifadə olunacaq", - deyə o bildirib.





# Vəziyyətləri yaxşıdır

## Helikopter qəzasında xəsarət alan hərbçilər evə buraxılıb

**Noyabrın 30-da Qaraheybətdə aviasiya poliqonunda təlim uçuşları həyata keçirən zaman qəzaya uğrayan Dövlət Sərhəd Xidmətinə məxsus Mi-17 helikopterində xəsarət alan hərbçilər evə buraxılıb.**

Bu barədə Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən məlumat verilib. Qeyd olunub ki, yaralı hərbçilər - polkovnik-leytenant Emil Cəfərov və kapitan Ramin Ədilov Dövlət Sərhəd Xidmətinin hospitalından ambulator müalicəyə buraxılıb. Hazırda yaralıların vəziyyəti yaxşıdır, hər iki hərbçi müalicələrini ev şəraitində müalicələrini davam etdirirlər.

*Xatırladaq ki, noyabrın 30-da Xızı rayonu ərazisində "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları yerinə yetirən zaman Dövlət Sərhəd Xidmətinə məxsus helikopter qəzaya uğrayıb.*

*Mİ-17 markalı helikopterin qəzaya uğraması nəticəsində 14 nəfər hərbi qulluqçu həlak olub, 2 nəfər yaralanıb.*

# Siyəzəndə şəhidimizlə vida mərasimi keçirilir

## Şəhidin atası Adil Əliyev Birinci Qarabağ müharibəsinin iştirakçısı olub







**Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində dekabrın 8-i gecə saatlarında Ermənistan silahlı qüvvələrinin törətdiyi növbəti təxribat nəticəsində şəhid olan hərbi qulluqçu Asif Əliyevlə Siyəzəndə vida mərasimi keçirilir.**

APA xəbər verir ki, şəhid əsgər Əliyev Asif Adil oğlunun cənazəsi Siyəzən rayonunun Zarat kəndinə, evlərinə gətirilib.

Vida mərasimində şəhidin yaxınları, hərbçilər, rayon İcra Hakimiyyətinin, ictimaiyyətin nümayəndələri iştirak edir.

Evin tək oğlu olan A.Əliyevin hərbi xidmətinin başa çatmasına 20 gün qalmışdı.

Asif Əliyev Vətən Müharibəsinin iştirakçısı olub, "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilib.

*Şəhidin atası Adil Əliyev Birinci Qarabağ müharibəsinin iştirakçısı olub.*

# "Azərbaycanda hələlik "Omicron" ştamına rast gəlinməyib"

## ÜST nümayəndəsi: Tibbi maskaların, sosial məsafənin saxlanılması və vaksinasiyanın faydası görülməkdədir"



**"5-14 yaş arası uşaq və yeniyetmələr arasında "Delta-M" və "Omicron" ştamlarına yoluxma halları artıb. Azərbaycanda hələlik "Omicron" ştammına rast gəlinməyib".**

Bunu Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı dünən Gəncə İcra Hakimiyyətində keçirilən görüşdə deyib. Gəncə İH-dən APA-ya verilən məlumata görə, ÜST nümayəndəsi COVID-19-la mübarizə çərçivəsində Gəncə şəhərində görülən işləri təqdirəlayiq hesab etdiyini bildirib. O qeyd edib ki, tibbi maskalardan istifadə, sosial məsafənin saxlanılması və vaksinasiya kimi həyata keçirilən qabaqlayıcı tədbirlərin faydası görülməkdədir. Müşahidələr göstərir ki, vaksinasiya prosesinin geniş vüsət aldığı ərazilərdə ölüm halları nəzərəçarpacaq dərəcədə azalmaqdadır. H. Harmancı bildirib ki, I doza önəmli olsa da, vaksin öz təsirini II dozadan sonra göstərir.

Hande Harmancı, xüsusilə risk qrupuna daxil olan şəxslərin vaksin olunmalarının vacibliyinə toxunub. O qeyd edib ki, tibb işçiləri, yaşı 65 və daha yuxarı olan şəxslər, həmçinin hamilə qadınlar vaksin olunmalıdırlar: "Son zamanlar mütəxəssislər hamilə qadınların da vaksin olunmaları yönündə fikirlər bildirirlər".

# Məğlubiyyət yaşamış ordunu dirçəltmək çox çətindir

## Ermənistan ordusundakı xaos hərbi, siyasi rəhbərlikdə yaranan böhranın nəticələridir



**Erməni əsgər xidmət yoldaşını güllələyib. 2003-cü il təvəllüdlü Ermənistan ordusunun əsgəri Senik Saakyan güllə yarası alıb. Ağır vəziyyətdə hospitala yerləşdirilib.**

Ermənistan Müdafiə Nazirliyinin məlumatına əsasən, hadisə 8 dekabr 23:50 radələrində ölkənin cənub-şərqində yerləşən hərbi hissələrdən birində yaşanıb. İlkin məlumatlara görə, yaralını əsgər yoldaşı güllələyib. S.Saakyanın vəziyyətinin kritik olduğu bildirilir. Qeyd edək ki, düşmən ölkədə analoji fakt və hadisələrin sayı artmaqdadır. Belə halların baş verməsi Ermənistan ordusundakı gərginlikdən, xaotik durumdan xəbər verir.

**Ermənistan ordusundakı vəziyyət barədə "Şərq"ə danışan ehtiyatda olan polkovnik Şair Ramaldanov bildirib ki, düşmən ölkə rəhbərliyində dəyişikliklər olur, müdafiə nazirləri yenilənir:**

"Bu da oradakı vəziyyətin stabil olmadığının göstəricisidir. Bunu hərbi hissələrdə xidmət edən əsgərlər də əks etdirir. Nizam-intizam aşağı səviyyədədir. Müharibəyə qədər müəyyən şəkildə qayda-qanunu tənzimləmək mümkün idi. Sonra isə məğlubiyyət yaşamış ordu mənəvi və psixoloji cəhətdən gərginliyə düçar olub".

Polkovnik əlavə edib ki, bu hərbi böhranın dərinləşməsi zabit və əsgərlər arasında da ciddi gərginlik yaradır:

"Zabitlərin müəyyən bir hissəsi Qarabağ müharibəsində həlak olublar. Bu baxımdan zabit heyətin çatışmazlığı haqqında məlumatlar var.

Hərbi hissənin özündə Koçaryan və Paşinyan tərəfdarları arasında müəyyən bir ziddiyyət də müşahidə olunur. Bu da hərbi, siyasi rəhbərlikdə yaranan böhranın nəticələridir.

Düşünürəm ki, bu, bir müddət davam edəcək. İndiki zamanda sərhəddəki təxribatların səbəbi çox vaxt həmin hərbçilərin təsirlər altında olmasından irəli gəlir. Eyni zamanda revanşist qüvvələrə xidmət etməsi kimi izah etmək olar.

Fikrimcə, erməni silahlı qüvvələri silah-sursat cəhətdən yardımlarla təmin olunsa da, mənəvi, psixoloji durumdan irəli gələn fəsadlardan qurtula bilməyəcək".

**Sücayət Mehti**

# Jurnalistlərin peşəkarlıq səviyyəsi diqqət mərkəzindədir

## Media sahəsində həyata keçirilən islahatlar çərçivəsində görülən işlərin müzakirəsi aparılıb

İsmayıl Qocayev



**Dünən Media İnkişaf Agentliyində bir sıra media subyektlərinin rəhbər və nümayəndələrinin iştirakı ilə görüş keçirilib.**

Media sahəsində həyata keçirilən islahatlar çərçivəsində görülən işlərin müzakirəsinə həsr olunmuş görüşdə "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Prezidentin 2021-ci il 12 yanvar tarixli Fərmanının müvafiq sahədə islahatların yol xəritəsi olduğu vurğulanıb. Fərmandan irəli gələrək normativ hüquqi bazanın yenilənməsi və təkmilləşdirilməsi, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin peşəkarlığının, məsuliyyətinin və cəmiyyətin media savadlılığının artırılması istiqamətində həyata keçirilən çoxşaxəli və kompleks tədbirlərin mahiyyəti və əhatəsi barədə geniş məlumat verilib. Görüş iştirakçıları "Media haqqında" qanun layihəsi, jurnalistlərin sosial müdafiəsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi, media subyektləri və jurnalistlərin peşəkarlıq meyarına uyğun fəaliyyət göstərə bilmələri üçün hüquqi təminatın yaradılması haqqında fikirlərini bölüşüblər. Eyni zamanda, media və biznes strukturları arasında platformanın yaradılması və media dəstək layihələrinin həyata keçirilməsi istiqamətində görülən işlərə diqqət çəkilib.

**MEDİA Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, Agentlik dövlət orqanlarının mətbuat katibləri, media qurumlarının rəhbərləri və jurnalistlər üçün seminar-təlimlər təşkil edib.** Vurğulayıb ki, Media savadlılığının artırılması, yeni nəsil jurnalist kadrlarının hazırlanması məqsədilə "New Media" proqramı və fərdi jurnalist müsabiqələri keçirib. O cümlədən sahəvi jurnalistikanın inkişafı istiqamətində müvafiq işlər görüb.

Müzakirə zamanı medianın keyfiyyət, peşəkarlıq və standartlar baxımından təhlili, hüquqi bazanın təkmilləşdirilməsi, kommunikasiyanın təşkili, beynəlxalq əməkdaşlıq, strateji planlaşdırma və perspektiv planlar barədə fikir mübadiləsi aparılıb. Görüş qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi ilə başa çatıb.

# Qələbə qələbə gətirəcək

## Gələn il Ermənistana qarşı daha iki iddia qaldırılacaq



## "Bundan sonra da Ermənistanı nüfuzlu məhkəmələrdə ifşa siyasətimiz davam etməlidir"

İsmayıl Qocayev

**Azərbaycanın Beynəlxalq Ədalət Məhkəməsində iddialarının əksəriyyətinin təsdiqlənməsi Ermənistanda narahatlıqla qarşılanıb. Erməni politoloq və hüquqşünaslar hüquqi müstəvidə bu qələbədən sonra Azərbaycanın iddialarının genişlənəcəyini və bundan siyasi məqsədləri üçün istifadə edəcəyini bildiriblər.**

Erməni hüquq müdafiəçisi Siranuş Saakyan deyib ki, Azərbaycanın yalnız mina xəritələri ilə bağlı iddiasından imtina edilib, o da ona görə ki, "Ermənistan qorxaq siyasət həyata keçirərək" Haaqa Məhkəməsinin qərarından əvvəl mina xəritələrinin hamısını Azərbaycana verib. Saakyan Azərbaycanın demək olar ki, istəyinə tam çatdığını və bunun sonrakı proseslərdə presedentə çevriləcəyini vurğulayıb. Onun sözlərinə görə, Azərbaycan məhkəməyə yaxşı hazırlaşıb və tutarlı dəlillər təqdim edib, bunun əvəzində isə erməni tərəfi ciddi arqumentlərlə çıxış etməyi bacarmayıb. Saakyan "erməni əsirlər" məsələsində Ermənistanın beynəlxalq məhkəmədə uduzmasının Azərbaycana əlavə şans tanıyacağını qeyd edib: "Bu qərar Azərbaycanın əlinə əlavə kozır verdi və rəsmi Bakı məsələnin qısa müddətdə həlli üçün siyasi güzəştlər tələb edəcək". Məlumat üçün bildirək ki, Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın əsas iddiası və məqsədi olan "müharibə məhbuslarının dərhal geri qaytarılmasına dair" iddiasını təmin etməyib. Məhkəmədə, həmçinin Ermənistanın Hərbi Qənimətlər Parkının bağlanmasına dair iddiası da rədd edilib. Ermənistanın Azərbaycan tərəfindən müharibə cinayətlərinin araşdırılmasına dair iddiası da təmin olunmayıb.

Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov bildirib ki, rəsmi Bakının Ermənistana qarşı hüquqi məsuliyyət tədbirləri yalnız bununla kifayətlənmir. XİN rəsmisinin sözlərinə görə, Azərbaycan tərəfi Ermənistana qarşı bir sıra Konvensiyalar üzrə, xüsusilə də ətraf mühitə vurulmuş ziyan və enerji resuslarının qanunsuz istismarı ilə bağlı növbəti il dövlətlərarası şikayətlərin irəli sürülməsini planlaşdırır.

**Demokratiya və İnsan Haqları İnstitutunun rəhbəri, hüquq müdafiəçisi Əhməd Şahidov "Şərq"ə açıqlamasında xatırladıb ki, Azərbaycan Ermənistana qarşı Avropa İnsan Haqları Məhkəməsinə müraciət ünvanlamışdı.** Ekspertin sözlərinə görə, Beynəlxalq Ədalət Məhkəməsində Ermənistana qarşı iddia qaldırmaq Azərbaycanın ikinci təşəbbüsü idi: "Ermənistan məsuliyyətdən yayınmaq və prosesi uzatmaq üçün həm Avropa İnsan Haqları, həm də BMT-nin Ədalət Məhkəməsində Azərbaycana qarşı paralel iddialar qaldırmışdı. Məqsədli şəkildə hərbi əsirlərlə bağlı məsələdən sui-istifadə edərək, guya, ölkəmizdə onlara işgəncə verildiyi yalanını ortaya atmışdılar. Qarabağdakı tarixi-dini abidələrimizi "erməni məbədləri" kimi qələmə vermişdilər. Həm də Qənimətlər Parkının erməni xalqına nifrət aşıladığını iddia etmişdilər. Lakin ədalət yerini tapdı və ermənilərin absurd ittihamları heç biri məhkəmə tərəfindən qəbul olunmadı. Ermənistan Beynəlxalq Ədalət Məhkəməsinin qərarlarını yerinə yetirmək məcburiyyətindədir. Beynəlxalq məhkəmə qərarlarının nə qədər effektli olması ayrıca müzakirə mövzusudur və mübahisəli məsələdir. BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsinin uzun müddət icra olunmadığı hamımıza bəllidir. Halbuki, qətnamələr qəbul ediləndən sonra Azərbaycan ictimaiyyəti illərlə həsrətlə torpaqlarının işğaldan azad olacağı günü gözlədi. Son nəticədə Azərbaycanın şanlı Ordusu döyüş meydanında qətnamələri icra etdi. Ancaq siyasi və diplomatik baxımdan beynəlxalq məhkəmələrin ədalətli mövqe sərgiləməsi və Ermənistanın əsassız iddialarını rədd etməsi Azərbaycanın ciddi uğurudur. Çünki ortada hüquqi bir sənəd var. Bu, bizə stimul olmaqla yanaşı, həm də gələcək nəsil və tariximiz üçün önəmli nəticədir. Azərbaycan beynəlxalq məhkəmələrdə öz haqqını tələb edir və Ermənistan əleyhinə qərarların alınmasına nail olur".

**Ə.Şahidov vurğulayıb ki, bundan sonra da Ermənistanı nüfuzlu məhkəmələrdə ifşa siyasətimiz davam etməlidir. Hüquq müdafiəçisi bəyan edib ki, Ermənistanın törətdiyi cinayətlərlə bağlı beynəlxalq məhkəmələrə üz tutmaq üçün dəlil-sübutlarımız, səbəblərimiz çoxdur:** "30 ilə yaxın müddətdə bir milyon qaçqın və məcburi köçkünümüz doğma yurd-yuvalarından didərgin salınıb. İşğal altında qalmış rayonlarımızı tamamilə yerlə-yeksan ediblər, şəhərlərimiz, kəndlərimizi viran qoyublar. Tarixi abidələrimizə, mədəni irsimizə, təbiətimizə dəymiş ziyana görə, Ermənistandan böyük məbləğdə təzminat tələb edilməlidir. Vurğulanmalıdır ki, Ermənistan bu gün də Azərbaycana axan çayları zəhərləməklə, meşələrə od vurmaqla məşğuldur. Uzun müddət Avropada girovlarımızın hüquqlarını müdafiə etmiş bir şəxs kimi çox istərdim ki, təxminən 4000-ə yaxın itkinimizin taleyi də beynəlxalq məhkəmələrdə qaldırılsın. Ermənistandan tələb edilsin ki, 30 il ərzində 4 min itkinlə bağlı gizli saxlanılan məlumatları açıqlasın. İrəvan əleyhinə qərarlar çıxarılsa, Paşinyan hökuməti məcbur edilsə, real nəticələr əldə olunar. Hələ də ümidliyəm ki, 30 il keçməsinə baxmayaraq, 4 min insanımızdan sağ qalanlar var. Sözün qısası, Ermənistan üzərində təzyiqimiz davamlı və fasiləsiz olmalıdır. Bir-iki uğurla kifayətlənməməliyik".

# Almaniyada hökumət, dövran dəyişdi

## Yeni hökumət ABŞ və Rusiya ilə nizamlı dialoqa başlayacaq




**"Almaniyada uzun müddətdən sonra hakimiyyətə 3 partiyalı koalisiya gəldi". Bu barədə politoloq Elman Vəliyev deyib. Analitik bildirib ki, Sosial Demokrat (qırmızılar), Yaşıllar və Azad Demokrat (sarılar) partiyalarından ibarət yeni hökumət bir çox sahədə dəyişikliklər edəcək:** "Yeni hökumətə sabiq kansler Angela Merkelin maliyyə naziri olmuş Olaf Şolts başçılıq edəcək. Hökumətin proqramına əsasən sosial məsələlər, iqlim məsələləri daxil olacaq. Amma siyasi məsələlər də geri qalmayacaq. Keçmiş kansler Merkelin vaxtında Almaniya-Rusiya münasibətləri nizamlı şəkildə davam edirdi. Hətta Rusiya "Şimal axını 2" layihəsini həyata keçirdə bildi. Bu layihə vasitəsilə Rusiya qazı Almaniya və digər Avropa ölkələrinə çatdırılır".

*Ekspertə görə, yeni hökumət Amerika ilə münasibətləri daha da möhkəmləndirməyə çalışacaq:* "Ancaq Rusiya yeni hökumətlə daha tez dialoqlara başlayacaq. Çünki Almaniya ilə nizamlı diplomatiya Rusiyaya lazımdır. Almaniya da Ukrayna məsələsinə görə narahatdır. Rusiya bilir ki, Ukraynaya qarşı təzyiqlər etsə, Almaniya qaz layihəsinə sanksiyalar tətbiq edə bilər. Düşünürəm ki, "İşıqfor" hökuməti Türkiyə ilə əlaqələri də möhkəmləndirəcək. Hətta miqrantlar məsələsinə görə yardımlar belə edə bilər".

**İsmayıl**



# Bu gün hələ son deyil

## Gələcəkdə Gürcüstan da "altılıq" platformasına qatılacaq

**Prezident İlham Əliyev və Türkiyə lideri Rəcəb Təyyib Ərdoğanın təşəbbüsü ilə yaradılmış "3+3" formatında platformanın ilk iclası bu gün Moskvada keçiriləcək.**

Görüşdə Azərbaycan, Türkiyə, Rusiya, İran və Ermənistanın xarici işlər nazirlərinin müavinləri təmsil olunacaq. Azərbaycanı toplantıda xarici işlər nazirinin müavini Xələf Xələfov təmsil edəcək. Ermənistanın "3+3" formatında iştirakı postmünaqişə dövrünü qəbul etməsi və Azərbaycanla sülh sazişini imzalaması imkanlarını artıra bilər. Baş nazir Nikol Paşinyan ara-sıra daxili rəyə ünvanlanmış mesajlar ötürsə də, anlayır ki, bu formatda iştirak və əlaqələrin qurulması qaçılmaz zərurətdir. İrəvanın hədəfi iqtisadi gəlirlər əldə etmək, xüsusilə Türkiyə ilə sərhədlərin açılmasına nail olmaqdır. Bunun da yolu regional əməkdaşlıq təkliflərində yer almaqdan keçir. Ancaq rəsmi Tbilisi Moskvadakı "altılıq" platformasının iclasında iştirak etməyəcəyini açıqlayıb. Gürcüstan Xarici İşlər Nazirliyi məlumat verib ki, "altılıq" formatda iştirak etməməklə bağlı mövqeləri birmənalıdır: "Gürcüstan Xarici İşlər Nazirliyi "3+3" regional əməkdaşlıq təşəbbüsü ilə bağlı mövqeyini dəfələrlə aydın şəkildə vurğulayıb. Biz bu formatda iştirakı nəzərdən keçirməyəcəyik. Ona görə də Gürcüstan dekabrın 10-na təyin edilmiş iclasda təmsil olunmayacaq".

> Moskvada görüşün keçirilməsi ilk növbədə Azərbaycan və Türkiyə liderlərinin regional əməkdaşlıq təkliflərinin qəbul edilməsi deməkdir

**"Altılıq" platformasının ilk iclası və Gürcüstanın iştirak etməməsi ilə bağlı "Şərq"ə fikirlərini bölüşən Qərbi Kaspi Universitetinin professoru Fikrət Sadıqov deyib ki, Moskvada görüşün keçirilməsi ilk növbədə Azərbaycan və Türkiyə liderlərinin regional əməkdaşlıq təkliflərinin qəbul edilməsi deməkdir.** Politoloq vurğulayıb ki, bölgədə sülh və sabitlik istəyən ölkələr əməkdaşlıq platformasından qaçmamalıdır: "Platforma çərçivəsində regionla bağlı bir çox məsələlər müzakirə olunacaq, problemlərin həlli istiqamətində söhbətlər aparılacaq. O baxımdan bölgədə yerləşən ölkələrin bu cür formatlarda təmsil olunması çox faydalıdır. Gürcüstan tərəfi ilk günlərdən ikili bəyanatlar verir. Əvvəlcə bir sıra rəsmilər vurğuladı ki, Rusiya ilə münasibətlər olmasa da, Tbilisi regional əməkdaşlıqdan kənarda qalmaq istəmir. Ancaq digər rəsmi şəxslər isə bəyan etdilər ki, Gürcüstan Rusiyanın yer aldığı platformalarda yer ala bilməz. Gürcüstan başa düşməlidir ki, regional əməkdaşlıq platformasında ona yaxın başqa ölkələr var. Azərbaycan və Türkiyə Gürcüstanla yaxın müttəfiq, etibarlı tərəfdaşdırlar. İstənilən məsələdə daim Gürcüstana dəstək vermişik, arxa çıxmışıq. Əksər məsələlərdə mövqelərimiz üst-üstə düşür".

**F.Sadıqova görə, Gürcüstanın "altılıq" platformada yer almamasının mənfi məqamları var:** "Gürcüstan Cənubi Qafqaz üçün önəmli ölkədir və ərazisindən bir neçə mühüm enerji-nəqliyyat xətləri keçir. Qonşu Gürcüstan önəmli layihələrin əsas iştirakçısıdır. Tbilisinin gələcəkdə öz yanaşmasını dəyişməsini istisna etmirəm. İlk iclasda iştirak etməsə də, sonrakı görüşlərə qatıla bilər. Ola bilsin, təhlükəsizlik və stabillik amilləri Gürcüstanı da "altılıq" platformasına meyilləndirsin".

**İsmayıl Qocayev**

# Paris Bakı ilə münasibətləri yaxşılaşdırmaq istəyir

## Fransa regionun aparıcı ölkəsinin Azərbaycan olduğunu yavaş-yavaş anlamağa başlayır



**Dekabrın 8-də Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Fransanın Rusiyadakı səfiri Pyer Levini onun xahişi ilə qəbul edib. Polad Bülbüloğlu fransalı həmkarı ilə Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr və 11 yanvar tarixli bəyanatlarının müddəalarının icrası ilə bağlı fikir mübadiləsi aparıb.**

Eyni zamanda söhbət əsnasında 26 noyabrda Soçidə keçirilmiş yüksək səviyyəli üçtərəfli görüşün nəticələri müzakirə olunub. Səfirimiz Azərbaycanın sülh prosesinə hazır olduğunu bildirərək, Ermənistan tərəfindən öhdəliklərin hələ də icra olunmadığını vurğulayıb. Ermənistanın mövcud reallıqla barışmalı olduğunu vurğulayan səfir Zəngəzur dəhlizinin ən qısa zamanda açılmasının buradakı ölkələr üçün yeni imkanlar yaradacağına əminliyini ifadə edib. Soçi görüşünə toxunan P.Bülbüloğlu həmsöhbətinin nəzərinə çatdırıb ki, birbaşa təmaslar Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması baxımından olduqca vacibdir. Levi isə postmünaqişə, xüsusilə də Soçi görüşündən sonrakı vəziyyətə dair ölkəmizin mövqeyi ilə maraqlanıb. Daha sonra fransalı səfir iki ölkə arasında delimitasiya prosesinin detalları barəsində ona məlumat verilməsini xahiş edib. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

**Fransız səfirin Azərbaycan təmsilçisi ilə görüşünü "Şərq"ə dəyərləndirən politoloq Azər Rəşidoğlu deyib ki, savaş artıq başa çatıb və Azərbaycan qələbə əldə edib**. Analitik bildirib ki, regionun aparıcı ölkəsi Azərbaycandır. Bunu bütün dövlətlər, o cümlədən Fransa da anlayır. Odur ki, Paris Bakı ilə münasibətləri yaxşılaşdırmaq istəyir: "Fransa işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi üçün Azərbaycana 400 min avro ayırmaq niyyətindədir. Bu, bir jestdir. Fransa həmçinin, Azərbaycanda, o cümlədən işğaldan azad edilən ərazilərdə yeni investisiya layihələri reallaşdırmaq istəyir. ATƏT-in Minsk qrupunun fəaliyyətinin bərpası artıq imkansızdır. Paris anlamalıdır ki, ermənipərəst mövqeyinə görə, Azərbaycan kimi tərəfdaşı itirə bilər. Digər tərəfdən, "Zəngəzur dəhlizi"nin açılması gözlənilir. Bunun qarşısını almaq da qeyri-mümkündür. Deməli, qalib tərəfin yanında durmaq lazımdır. Türkiyənin bölgədə artan mövqeyinin qarşısını almaq üçün Fransanın İrəvanla əməkdaşlığı müsbət perspektiv vəd etmir".

A.Rəşidoğlu əlavə edib ki, Fransa şirkətlərinə Azərbaycanda investisiya qoymaq üçün bir çox imkanlar yaradılıb: "Fransanın çoxsaylı firmaları Azərbaycanda fəaliyyət göstərir. Azərbaycan Fransaya humanitar yardım göstərib. Bakı özünü yaxşı tərəfdaş kimi tanıdıb. Qeyd edim ki, Fransa erməni faşizmini təbliğ etməyin perspektivsiz olduğunu da yavaş-yavaş anlayır. Əgər Paris ermənipərəst mövqeyindən uzaqlaşarsa, Azərbaycan-Fransa münasibətləri yeni müstəviyə keçə bilər".

**İsmayıl Qocayev**

# Brüssel görüşü öncəsi yenə şəhid verdik

## Ermənistandakı revanşist qüvvələr vəziyyəti yenidən gərginləşdirməyə çalışır, hərbi təxribatlara əl atırlar



## "Sərhəd təxribatları sayəsində kənar oyunçuları prosesə cəlb etməyə cəhd göstərirlər"

**Ermənistan Azərbaycanla sərhədin Kəlbəcər rayonu istiqamətində növbəti dəfə atəşkəsi pozaraq təxribata əl atıb. Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən müvafiq tədbirlər nəticəsində qarşı tərəf susdurulub. Təxribat nəticəsində hərbi qulluqçumuz, əsgər Asif Əliyev şəhid olub.**

Müdafiə Nazirliyi bəyan edib ki, sərhəddə baş vermiş növbəti gərginliyə görə, bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Göründüyü kimi, dekabrın 15-də Brüsseldə gözlənilən görüş ərəfəsində Ermənistandakı revanşist qüvvələr vəziyyəti yenidən gərginləşdirməyə çalışır, hərbi təxribatlara əl atırlar. Xatırladaq ki, Ermənistan parlamentarilərinin qanunsuz olaraq Xankəndiyə səfəri Azərbaycan-Ermənistan xarici işlər nazirlərinin Stokholmdakı görüşünün baş tutmaması ilə nəticələndi. Azərbaycan məhz bu təxribatçı hərəkətə görə görüş qərarından vaz keçdi. Ekspertlərin fikrincə, İrəvanın məqsədi aydındır. Ermənistan münaqişənin bitmədiyini, Qərbin timsalında yeni vasitəçilərə ehtiyac duyulduğunu qabartmaqla üçtərəfli bəyanatların icrasından boyun qaçırmaq istəyir.

**Növbəti erməni provokasiyası ilə bağlı "Şərq"ə danışan Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, sabiq millət vəkili Fərəc Quliyev deyib ki, Ermənistanın məqsədi bizə aydındır.** Ona görə də İrəvandan konkret tələb etməliyik ki, təxribatlara son qoyaraq yekun sülhə imza atsın. Əks halda Azərbaycan hərbi əməliyyatlarını davam etdirməlidir. Partiya sədrinin sözlərinə görə, beynəlxalq hüquqa əsasən haqqımız çatır ki, ərazimizi təhdid edən nöqtələri zərərsizləşdirək: "Sərhəd təxribatlarının Qarabağa dəxli yoxdur və bunlar müharibə səbəbidir. Xəbərdarlığımız çox ciddi olmalıdır. Kəlbəcərdən olan vətəndaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyev ermənilərin girovluğunda olanda demişdim ki, məsələnin həlli müharibədən və torpaqlarımızın azadlığından keçir. Bildirmişdim ki, beynəlxalq təşkilatlara şikayət etməyin mənası yoxdur. İndi də o fikirdəyəm ki, üzləşdiyimiz problemlərin köklü həlli Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü qeyd-şərtsiz tanımasına məcbur etməkdən asılıdır. Sülhə məcburetmə əməliyyatları qaçılmazdır. Ermənistan tərəfi zaman-zaman müxtəlif bəhanələrlə sərhəddə təxribata əl atır. İrəvan hökuməti isə bunu üzərindən atmağa çalışır. Düşünürəm ki, indiki təxribat Soçi görüşündən sonra Brüsselə əliboş gedən Ermənistanın baqaj hazırlığıdır. Azərbaycan daxilində "Qarabağ münaqişəsi" deyilən bir məsələ yoxdur. Burada yeni rıçaqlar hazırlamaq mümkün deyil ki, müharibə dönəmində oyundan kənarda qalan böyük güclər yeni rıçaqlardan istifadə etməklə bölgəyə qayıtsınlar. İndi həmin güclər Ermənistana sifariş veriblər ki, təxribatlarına davam etsin. Təxribat üçün isə sərhəd seçilir və iki dövlət arasında hansısa vasitəçiyə, sülhməramlılara ehtiyac yarandığı görüntüsünü imitasiya etmək istəyirlər".

**F.Quliyev vurğulayıb ki, Soçi görüşündə Nikol Paşinyan bir çox məqamlara məcbur edildi:** "İrəvan hökuməti görüşdə qəbul olunan bəyanatın iki bəndinə - sərhədlərin müəyyənləşməsi və regional kommunikasiyaların bərpası məsələsinə münasibət bildirmək məcburiyyətində qaldı. Ötən gün də Zəngəzur dəhlizinin açılması və sərhədlərin müəyyənləşməsi məsələsində geriyə yol olmadığı etiraf edildi. O səbəbdən sərhəd təxribatları sayəsində kənar oyunçuları prosesə cəlb etməyə cəhd göstərirlər. İrəvan qeyri-müəyyənlik yaratmaqla sərhədlərin delimitasiyasını yubatmaq və hələlik "təmas xətti"ni saxlamaq fikrindədir. "Təmas xətti" faktoru xarici gücləri bölgəyə dəvət etmək üçün kilidin açarıdır. Hazırda Paşinyan iki stulda oturmaqla həm Rusiya, həm də Qərblə oynayır. Hərbi məsələlərdə dəstəyi Moskvadan, maliyyə yardımını isə Qərbdən istəyir".

**İsmayıl Qocayev**





# Mediaya 5 illik vergi güzəşti!

**Qulu Məhərrəmli:**
*"Azad bazar iqtisadiyyatı qurularsa, media qurumları özlərinə iqtisadi müstəqillik təmin edə, iqtisadi bazalarını formalaşdıra bilərlər"*

**Əflatun Amaşov:**
*"Bu, mətbuatın iqtisadi durumunun yaxşılaşdırılması istiqamətində atılmış addımdır"*

**Dünən Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində (MEDİA) bir sıra media subyektlərinin rəhbər və nümayəndələrinin iştirakı ilə görüş keçirilib. Müzakirələr zamanı "Media haqqında" qanun layihəsi, jurnalistlərin sosial müdafiəsinə yönəlmiş tədbirlərin reallaşmasından danışılıb.**

Bundan başqa, media subyektləri və jurnalistlərin peşəkarlıq meyarına uyğun fəaliyyət göstərə bilmələrinə diqqət çəkilib. Eyni zamanda mətbuatda hüquqi təminatın yaradılması, media və biznes strukturları arasında platformanın formalaşması və mediaya dəstək layihələrinin həyata keçirilməsi istiqamətində görülən işlərə toxunulub.

Görüşdə MEDİA-nın İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, Vergi Məcəlləsinə dəyişikliklərin edilməsi ilə bağlı yeni layihə tətbiq oluna bilər. Layihə nəticəsində media orqanlarına 5 illik vergi güzəştinin tətbiq edilməsi mümkündür.

**Layihə ilə bağlı "Şərq"ə danışan BDU-nun professoru, media mütəxəssisi Qulu Məhərrəmli bildirib ki, mediada müəyyən problemlər öz aktuallığını hələ də saxlamaqdadır:**

"Mediada müəyyən problemlər var. Yayımla bağlı müəyyən çətinliklər mövcuddur. Qəzetlər yayılmır. Reklamla bağlı problem var. Məsələnin həlli azad bazar iqtisadiyyatındadır. Azad bazar iqtisadiyyatı qurularsa, media qurumları özlərinə iqtisadi müstəqillik təmin edə, iqtisadi bazalarını formalaşdıra bilərlər. Bu çox ciddi məsələdir. Bütün hallarda güzəştləri təqdir edirik".

**Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov da məsələyə münasibət bildirib:**

"Media orqanlarının 5 illik vergidən azad olunması əhəmiyyətli addımdır. Bu layihəyə gəlir vergisi və digər müəyyən vergilərdən azad olunma daxildir. Sözügedın layihə, təklif reallaşarsa, bu, media quruluşlarının maddi durumunu yaxşılaşdıra bilər. Bundan media orqanları strukturları gücləndirmək üçün istifadə edib, əməkdaşlarının əmək haqqını artıra bilərlər. Bu, mətbuatın iqtisadi durumunun yaxşılaşdırılması istiqamətində atılmış addımdır.

**Xanlar Əlibəy**



# Moskva ABŞ-ın iradəsini yoxlayır

## Rusiya Ukrayna sərhədləri boyunca süni şəkildə hərbi gərginlik yaradır

**Rusiya XİN ABŞ-ın Moskvadakı səfirliyinə etiraz notası göndərib. Bununla rəsmi Moskva NATO-nun müəyyən fəaliyyətlərinin təhlükəli nəticələri barədə Ağ Evə xəbərdarlıq edib.**

Nazirlik bəyan edib ki, Rusiya ABŞ və NATO-nun öz sərhədləri yaxınlığındakı hərəkətlərinə cavab vermək hüququnu özündə saxlayır və bu hərəkətlərə son qoyulmazsa, Rusiya onların qarşısını almaq üçün bütün mümkün vasitələrdən istifadə ediləcək.

Xatırladaq ki, ötən günlərdə baş tutan Bayden-Putin görüşündə Ağ Evin Rusiyanı açıq şəkildə təhdid etməsinin ardınca rəsmi Moskvanın ABŞ-a belə bir nota verməsi tərəflər arasında gərginliyin səngimədiyini göstərir. Bəs, mövcud gərginlik hazırkı ABŞ-Rusiya münasibətlərinə perspektivdə nə vəd edir?

**Vəziyyəti "Şərq"ə şərh edən politoloq Natiq Miri bildirib ki, tərəflərin 7 dekabr görüşü hələ də alternativlərin olmadığını göstərdi və hər iki tərəfin özünün keçilməz qırmızı xəttini bəyan etsə də, birbirinə təhlükəsizliklə bağlı zəmanət vermədilər:**

"Rusiya NATO-nun onun sərhədlərinə doğru genişlənməsinin qarşısını almasını, Ukraynanın NATO-ya üzv qəbul edilməməsinə dair konkret vədlərin verilməsini və ən nəhayət, rəsmi Kiyevin Donbası azad etmək istəyindən əl çəkməsini istəyir. Bu üç tələb rəsmi Moskva üçün əsasdır. Təbii ki, bunlar ABŞ-ın birmənalı olaraq yalnız verəcəyi bir qərarlar deyil. Bu məsələlər Ukrayna prezidenti və NATO ilə, eləcə də Avropa Birliyi ölkələri ilə müzakirə olunmalıdır".

> "Bundan sonrakı mərhələdə hər şey Ağ Evin atacağı addımlardan asılı olacaq"

**Politoloq rəsmi Moskva tərəfindən Ağ Evə verilən notaya diqqət çəkib:**

"Əslində Rusiyanın nota verməsinin əsas səbəbi də ortada heç bir anlaşmanın olmamasıdır. Ona görə də Ukraynanın təhlükəsizliyi ilə bağlı heç bir zəmanət vermir. Mütləq mənada anlaşmaq üçün alternativlər olmalıdır. Ancaq görünən odur ki, hələlik bu mövcud deyil. Düşünürəm ki, yaxın perspektivdə yeni görüşlər və müzakirələr olacaq".

**N.Miri ABŞ-ın öz tərəfdaşları və müttəfiqi olan Avropa Birliyi ölkələri ilə bərabər Rusiyaya qarşı birgə çıxış etməklə bağlı qərar qəbul etdiyini xatırladıb:**

"Bu məqamda Ukraynaya hücum olarsa, rəsmi Moskvaya qarşı ciddi iqtisadi sanksiyaların tətbiqindən söhbət gedir. Məsələ Rusiyanın ən böyük bankları, eyni zamanda, investisiya fonduna birbaşa sanksiyaların tətbiqi və beynəlxalq pul köçürmələri sistemi olan "svit" sistemindən onun tamamilə çıxarılmasından gedir. Artıq bu yöndə Putin xəbərdarlıq edib. Hər bir halda zənnimcə, Rusiya Ukrayna sərhədləri boyunca süni şəkildə hərbi gərginlik yaratmaqla dolayısıyla Qərb dünyasının, xüsusilə də ABŞ-ın siyasi iradəsini test etmək istəyir".

Politoloq söyləyib ki, rəsmi Vaşinqtondan sərt reaksiya veriləcəyi təqdirdə rəsmi Moskva geri çəkiləcək, əks halda isə daha da irəli gedəcək: "Bundan sonrakı mərhələdə hər şey Ağ Evin atacağı addımlardan asılı olacaq".

**Günəş Mərd**

# Kremlin planını pozmağa çalışmalıyıq

## Qarabağda təşkilatlanmış rus icmasına ehtiyac yoxdur



> "Görünür, "rus icması" həm Moskvaya, həm də erməni separatçılarına lazımdır. Bu, "Donbas senarisinə" bənzəyir"

**Rusiya Qarabağda sülhməramlıların müvəqqəti nəzarət zonasında "rus icması"nın yaradılması prosesinə başlayıb. Rusiya Federal Təhlükəsizlik Xidmətinin Akademiyasının keçmiş məzunu, Zori Balayanın yaxın dostu Aleksandr Bordovun Qarabağdakı rus icmasına rəhbər seçilməsi xəbəri yayılıb.**

Məlumata görə, dekabrın 1-dən başlayaraq Xankəndi və ətrafında "slavyan əsilli" şəxslərin siyahıya alınmasına başlanıb. Statistik məlumatlar göstərir ki, 1989-cu ilin siyahıya alınmasında keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində cəmi 1922 rus yaşayırmış. Onların 800 nəfərini Xocavəndin Kuropatkino kəndində yaşayan malakanlar təşkil edib. Qalanları da ezam olunmuş partiya-sovet işçiləri olub. 1990-cı illərin əvvəlində həmin kəndin sakinlərinin bir hissəsi Azərbaycanın başqa rayonlarında yaşayan malakanların yanına köçüb. Bir hissəsi də Rusiyaya qayıdıb. Faktiki bu günlərdə Qarabağ sakini sayıla biləcək rusların mövcudluğu barədə heç bir informasiya yoxdur.

**Rusiyanın Qarabağda növbəti oyununu "Şərq"ə təhlil edən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, Qarabağda yaşayan rusların sayı çox deyil.** Analitikin fikrincə, əgər söhbət ermənilərlə qarışıq ailələrdə yaşayan 10-15 nəfər rusdan gedirsə, Qarabağda təşkilatlanmış rus icmasına ehtiyac yoxdur: "Görünür, "rus icması" həm Moskvaya, həm də erməni separatçılarına lazımdır. Bu, "Donbas senarisinə" bənzəyir. Rusiya əvvəlcə Donbasda separatçılığı dəstəklədi, bundan sonra orada yaşayanlara Rusiya pasportları payladı. Hazırda Rusiya Ukraynanı hədələyir ki, Donbasa hücum olarsa, Rusiya bu bölgədəki vətəndaşlarını qorumaq üçün Ukraynaya müdaxilə edəcək. Abxaziya və Cənubi Osetiya da eyni yolla Gürcüstandan qopardılmışdı. Moskvanın Qarabağdakı ermənilərə də Rusiya pasportları paylaması təhlükəsi var. Belə olarsa, Kreml Qarabağda Rusiya vətəndaşı olan erməni separatçılarını "qorumaq" bəhanəsi ilə Azərbaycanın Xankəndi və ətrafını nəzarətə götürməsinə mane olacaq".

*E.Şahinoğlunun fikrincə, Moskvaya Qarabağdakı ermənilərə rus pasportlarının paylaşması həm də ona görə lazımdır ki, 2020-ci ildə bölgədə yerləşdirdiyi hərbçilərinin varlığını daimi edə bilsin:* "Vladimir Jirinovski rusiyalı hərbçilərin Qarabağa daxil olduğu gün Rusiyanın televiziya kanalında bunu demişdi: "Biz Qarabağda əbədi qalacağıq, oradan çıxmayacağıq". Məlumdur ki, Kreml bir sıra ideyalarını Jirinovski vasitəsilə səsləndirir. Azərbaycanın icazəsi olmadan rusiyalı hərbçilərin Xocalıda provaslav kilsəsi açması, rus sərkərdəsi Aleksandr Nevski başda olmaqla rus yazıçılarının abidələrini qoyması bu siyasətin tərkib hissəsidir.

Rusiyalı hərbçilərin 4 ildən sonra Qarabağı tərk etmələrini istəyiriksə, Moskvanın erməni separatçıları ilə birgə həyata keçirdikləri planları pozmağa çalışmalıyıq".

**İsmayıl Qocayev**

# Gürcüstanın səhiyyə naziri vəzifəsindən istefa verib



**Gürcüstanın məcburi köçkünlərin işləri, əmək, səhiyyə və sosial müdafiə naziri Yekaterine Tikaradze vəzifəsindən istefa verib.**

Bu barədə o, keçirdiyi xüsusi brifinqdə məlumat verib.

Y.Tikaradze istefasının səbəbləri barədə məlumat verməyib. O, səhiyyə sektorunda çalışanlara əməkdaşlığa görə minnətdarlığını bildirib və nazirliyə rəhbərlik etdiyi dövrdə əldə olunmuş nailiyyətlərdən danışıb.

Y.Tikaradze nazir vəzifəsini 2019-cu ilin iyunundan tutub. O, bundan sonra hakim "Gürcü arzusu-Demokratik Gürcüstan" partiyasında fəaliyyətini davam etdirəcəyini bildirib.

Qeyd edək ki, son günlər nazir Yekaterine Tikaradze ilə Gürcüstanın Xəstəliklərə Nəzarət Milli Mərkəzinin rəhbəri Amiran Qamkrelidze arasında koronavirusla mübarizə mövzusunda ciddi qarşıdurma yaranmışdı. Bəzi məlumatlara görə, nazir ciddi təzyiqlərlə üzləşib.

# 30 ildə "Əkinçi" qəzetinə 30 qəpik də ayrılmayıb



## Baş redaktor İsaməddin Əhmədov: “Redaksiyaya bir dənə də olsun texniki avadanlıq verilməyib”

**Tarix təkrar olunur, deyənlər yanılmayıb. Məsələn, milli mətbuatımızın bünövrəsi ”Əkinçi” qəzeti 150 il əvvəl hansı sıxıntılarla, hansı çətinliklərlə nəşr olunurdusa, indi də belədir.**

Təkcə milli mətbuatımızın deyil, Azərbaycan mədəni mühitinin formalaşmasında, milli düşüncənin formalaşmasında cığır açmış, bizim mədəni, sivil xalq kimi tanınmağımızda əvəzsiz xidmətləri olmuş Həsən bəy Zərdabiyə münasibət də 19-cu əsrdəkindən az fərqlənir. Zərdabinin ev-muzeyinə ayrılan vəsait mənimsənilməsi, bunu söyləməyimizə əsas verir.

**Bu barədə ”Şərq”ə hazırda Zərdabda nəşrini minbir əziyyətlə davam etdirən ”Əkinçi” qəzetinin baş redaktoru İsaməddin Əhmədov dedi. Baş redaktor ”Şərq”ə açıqlamasında qeyd etdi ki, Azərbaycan müstəqilliyini bərpa etdiyi bu 30 ildə ”Əkinçi” qəzetinə 30 qəpik vəsait də ayrılmayıb.** Redaksiyaya bir dənə də olsun texniki avadanlıq verilməyib. Qəzet rayon icra hakimiyyətinin hesabına - abunə hesabına ayaqda dayanır. Hələ bu harasıdı?.. Zərdabinin ev-muzeyi də bərbad gündədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev illər öncə Zərdabinin ev-muzeyinin əsaslı təmiri üçün sərəncam imzalayıb, sərəncama əsasən təmir və eksponatların zənginləşdirilməsi üçün 300 min manat vəsait ayrılıb. Amma bu vəsaitin heç 30 mini də ev-muzeyinin təmirinə xərclənməyib:

“Zərdabinin ev muzeyinin əsaslı təmirinə 300 min manat vəsait ayrılıb. Ancaq təmir işləri başdansovdu aparılıb”

- Təmir işləri aparılanda getdim muzeyə, əvvəlcə mənə içəri keçməyə icazə vermirdilər, dedim, mən ”Əkinçi” qəzetinin baş redaktoruyam, aparılan işlərlə maraqlanmaq haqqımdır. İçəri keçəndə gördüm ki, təmiri başdansovdu aparırlar. Təsəvvür edin ki, arakəsməni alçıpanla düzəldirdilər. Dedim, a kişi, alçıpan nədi? Bura əsaslı bir muzey olmalıdır, bura hər yandan qonaqlar, ziyarətçilər gələcək. Fəhlə dedi ki, onlara belə tapşırılıb. Muzeydə cəmi 2 otaq var, bir dənə də dəhliz. Guya ki, şəkilləri aparmışdılar böyütdürüb gətirsinlər. Şəkillər geri gətiriləndə gördüm ki, sadə bir formatda böyüdülüb, sadə üsulla da rənglənib. Muzeyin qızdırıcı sistemi yoxdur. 2 kondisioner alıb veriblər ki, otaqları isidin. Yəni ayrılan o boyda vəsait hara xərcləndi, bilinmir.

**İ.Əhmədov bildirdi ki, ”Əkinçi” qəzetinin maliyyə problemləri var:**

- Qəzet Ağdaş Regional Mədəniyyət Mərkəzinin tabeliyinə veriləndən sonra vəziyyətimiz lap pisləşib. Mərkəzdəkilər qəzet nədir, bilmir.

*Qeyd edək ki, məlumatları dəqiqləşdirmək üçün Zərdabi ev-muzeyinin rəhbərliyi ilə də əlaqə saxladıq. Muzeyin direktoru Vəfa xanım heç bir problem olmadığını dedi.*

**Məlahət Rzayeva**

# İran, Azərbaycan və Gürcüstan razılığa gəldi



**İran, Azərbaycan və Gürcüstan Fars körfəzi-Qara dəniz marşrutu üzərində razılaşma əldə edib. Bununla Azərbaycan Fars körfəzi ilə Qara dəniz arasındakı daşımalarda əsas tranzit ölkəsinə çevriləcək.**

Şimal-Cənub beynəlxalq nəqliyyat layihəsinin Qərb marşrutunun genişləndirilmiş forması olan bu layihənin icrası üçün vaxtilə Tehrandan Bakıya təkliflər edilirdi. Lakin İranın Türkiyə marşrutuna alternativin yaradılması planı Azərbaycanın tərəddüdlərinə səbəb olurdu. İndi situasiya dəyişib. İkinci Qarabağ müharibəsindən sonra Türkiyənin əsas təşəbbüskarı olduğu ”3+3” formatı İranı da öz daxilində görür. Ankaranın özü də Hind okeanına çıxış üçün bu dəhlizdən istifadə edə bilər.

## “İrəvanın iştirak etmək istədiyi bütün regional layihələr Bakının əlindədir”

**Siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə deyib ki, İran bu dəhlizlə Avropa bazarına çıxış imkanını şaxələndirməyi düşünür.** Hərçənd, razılaşmanın hər üç tərəfi sanksiyaların dəhlizin potensial daşımalarına problem yarada biləcəyi perspektivini də anlayırlar. Bu baxımdan, Tehranın bu dəhliz üzərindən əldə etmək istədiyi iki qazanc var: ”Birincisi, İran Cənubi Qafqazda oyundan kənarda qalmayacaq. İkincisi isə ”bir kəmər, bir yol” layihəsinin İran üzərindən keçən Cənub dəhlizinin potensialı artacaq. Gürcüstan da anlayır ki, İrana qarşı sanksiyalar dəhliz üzərindən Avropa bazarına çıxışın perspektivini azaldır. Lakin Tbilisinin bu layihədə qazancı Şərqə doğru ticarət yollarını genişləndirməkdir. Razılaşmada əsas qazanan tərəf isə şübhəsiz, Azərbaycandır. Artıq ”Bir kəmər, bir yol” layihəsində Cənub dəhlizinin Azərbaycan üzərindən keçən Orta dəhlizə birləşdirilməsi siyasi və lojistik olaraq həll olunur. Bakı Avrasiyanın nəqliyyat şəbəkələrində payını daha da artırır. Ən əsası isə İran Fars körfəzi-Qara dəniz marşrutunu Ermənistan üzərindən keçirməklə Zəngəzur dəhlizinə alternativ yaratma planından imtina etməyə məcbur qalır. Bu,Tehranın ”3+3” formatına doğru gəlməsini daha da yaxınlaşdırır. Daha mühüm isə odur ki, Ermənistanın yeganə alternativi də əlindən alınmış olur. İrəvanın iştirak etmək istədiyi bütün regional layihələr Bakının əlindədir”.

**İsmayıl Qocayev**

# DİN xəbərdarlıq etdi, hüquqşünas rəy verdi

## Oyuncaq silaha görə vətəndaşı polisə çağırmaq doğru deyil




**Adəm Məmmədov:**
“Bu “silahla” kimsə hədələnibsə, ondan soyğunçuluq, xuliqanlıq məqsədilə, hədə-qorxu gəlmək, təhdid etmək üçün istifadə edilibsə, o zaman şəxs məsuliyyətə cəlb edilməlidir



**“Sosial şəbəkələrdə, elan saytlarında oyuncaq silah satışı var. Əksəriyyəti isə dəmir konstruksiyalıdır”. Bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev bildirib. Şöbə rəisi qeyd edib ki, oyuncaq silah əşyaları ilə bağlı hansısa qadağa yoxdur:**

”Ancaq bu oyuncaq əşyanı alıb onu ictimai yerlərdə, beldə, avtomobilin görünən yerində gəzdirilməsi və saxlanılması ilə bağlı polis orqanlarına vətəndaşlardan məlumatlar daxil olur. Yoxlayırıq, araşdırırıq, müəyyən edib dəvət edirik - cavab verir ki, ”oyuncaqdır, elə-belə gəzdirirəm”. Bu, ”elə-belə” gəzdirmə əməlinin adı nədir? Cavab verməkdə aciz qalır. Təbii ki, bu, bizə məlumdur, onu niyə və səbəbə gəzdirir. Bu özünü göstərməkdir? Bu özünü güclü təqdim etməkdir? Bu kiminsə diqqətini çəkməkdir? ”Həmin şəxslərin diqqətinə çatdırın - bu, hansısa ictimai təhlükəli əmələ rəvac verə, yaxud kiminsə qorxmasına, həyəcanlanmasına, stres keçirməsinə səbəb ola bilər”, - şöbə rəisi vurğulayıb.

**Hüquqşünas Adəm Məmmədov ”Şərq”ə açıqlamasında, yarı-zarafat, yarı-gerçək bildirdi ki, polis oyuncaq tapançanı əsl silahdan ayırd edə bilmirsə, özünə başqa peşə tapsın:**

- Silahı görəndə bilinir ki, oyuncaqdır, yoxsa əsl silah. Rəngindən, çəkisindən, quruluşundan. Oyuncaq silahı, əsl silahdan ayırd etmək asan bir işdir. Nadir hallarda oyuncaq silahlar əsl silahlara oxşayır. Gərək necə bir dəqiqliklə hazırlansın ki, əsl silaha oxşasın, əsl silah görüntüsü yaratsın. ABŞ-da hər cür silah növləri açıq satışdadır. Almaq istəyən pulunu ödəyib alır, amma rəsmi qeydiyyatla. Düzdür, silahların vətəndaşlarda olması faciələr də yaradır. Ancaq qeyri-rəsmi də insanlar silah əldə edir və hər cür cinayət törədirlər. Oyuncaq silah vasitəsilə cinayət əməli törədilməyibsə, o, oyuncaq kimi də qəbul olunmalıdır. Buna görə vətəndaşı polis şöbəsinə dəvət etmək, onunla söhbət aparmaq doğru deyil. Oyuncaq silah cinayət əməlində istifadə edildikdə, qanunvericilik onu silah olaraq qəbul edir. Bu ”silahla” kimsə hədələnibsə, ondan soyğunçuluq, xuliqanlıq məqsədilə, hədə-qorxu gəlmək, təhdid etmək üçün istifadə edilibsə, o zaman şəxs məsuliyyətə cəlb edilməlidir. Belədə oyuncaq silah da əsl silah hesab ediləcək, çünki məhz bu silahla kimsə qorxudulub, hədələnib. Amma oyuncaq silahdan cinayət işlədilmirsə, o, təhlükəli deyil.

*A.Məmmədov bunu da əlavə etdi ki, müharibədən qalib çıxmış xalqın silahlara marağının artması da anlaşılandır.*

**Məlahət Rzayeva**

# Tarix də qardaşlaşdı

## Yüz il sonra Türkiyə güclü Azərbaycanla müttəfiqliyindən qürur duyur




**Ötən il dekabrın 10-da Bakıda keçirilən möhtəşəm Zəfər paradı ölkəmizin qüdrətini, erməni faşizmi üzərində tarixi qələbəmizi bütün dünyaya nümayiş etdirdi. Bu, eyni zamanda, 30 ilə yaxın işğal altında qalmış torpaqlarımızın düşməndən təmizlənməsinin və ərazi bütövlüyümüzün bərpasının təcəssümü idi.**

Zəfər paradında nümayiş etdirilən texnikalar dövlət başçısı tərəfindən hərbi sahəyə göstərilən diqqət və qayğıdan xəbər verməklə yanaşı, ordumuzun maddi-texniki bazasının zənginliyinin ifadəsi idi. Paradda diqqətçəkən bir məqam da Şuşa azad edildikdən sonra Azərbaycan hərbçiləri tərəfindən şəhər üzərində qaldırılan Zəfər bayrağının parada gətirilməsi idi. 3 min Azərbaycan əsgəri və zabiti ilə yanaşı, türk əsgər və zabitlərinin də paradda iştirakı hər birimizdə qürur hissi doğurdu. Paradı Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və fəxri qonaq qismində dəvət olunan Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın izləməsi isə xalqımızın tarix salnaməsinə qızıl hərflərlə yazıldı. Bu həm də beynəlxalq ictimaiyyətə verilmiş ciddi mesaj idi. Həmin günü ölkəmizin bütün şəhərlərinin Azərbaycan və Türkiyə bayraqları ilə bəzədilməsi xalqlarımızın mənəvi yaxınlığından xəbər verirdi.

**Milli Məclis sədrinin müavini Adil Əliyev bildirib ki, Azərbaycan və Türkiyə liderlərinin Azadlıq meydanında keçirilmiş Zəfər paradını birlikdə qəbul etmələri böyük beynəlxalq hadisə kimi dünyanın diqqətini çəkdi.** Vitse-spiker vurğulayıb ki, bir sıra beynəlxalq ekspertlər Zəfər paradını sadəcə olaraq Azərbaycanın Ermənistan üzərində qələbəsinin deyil, eyni zamanda iki qardaş ölkə arasında yeni geosiyasi ittifaqın yaradılmasının təntənəsi kimi xarakterizə etdilər: ”Daha sonra 15 iyun 2021-ci il tarixində Azərbaycan və Türkiyə prezidentlərinin Şuşada imzaladıqları müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi bunu bir daha təsdiq etdi. Bu isə Azərbaycanın müharibədə əldə etdiyi qələbə sayəsində regionda yaratdığı yeni geosiyasi reallığın əsas komponentidir. Zəfər paradında Azərbaycan və türk əsgərləri çiyin-çiyinə Azadlıq meydanından keçdilər. 2018-ci ilin 15 sentyabrında Bakının erməni-daşnak qüvvələrinin və onların havadarlarının işğalından azad edilməsinin 100 illiyinə həsr edilmiş paradda da Azərbaycan və Türkiyə prezidentləri, eləcə də Azərbaycan və Türkiyə əsgərləri iştirak etmişdilər. 100 il qabaq da Azərbaycan və Türkiyə bir yerdə idi, bu gün də. Amma bugünkü parad və bugünkü Azərbaycan yüz il əvvəlkindən tam fərqlidir. Bu gün Azərbaycan zəif, köməksiz, dağınıq ölkə deyil, güclü iqtisadiyyatı, müstəqil daxili və xarici siyasəti, müzəffər ordusu olan ölkədir”.

**A.Əliyev vurğulayıb ki, yüz il əvvəl Türkiyə çətin vəziyyətdə olan Azərbaycanın köməyinə gəlmişdi. Bu gün isə Türkiyə güclü Azərbaycanla müttəfiqliyindən qürur duyur:** ”Azərbaycan-Türkiyə münasibətləri qardaşlığa və bərabərhüquqlu münasibətlərə əsaslanır. Yüz il öncə Bakı işğaldan azad edilərək ilk Azərbaycan Cümhuriyyətinin paytaxtı elan edildi. Lakin çox təəssüf ki, 2 il keçmədən cümhuriyyət süquta uğradı. Sovet dövründə Azadlıq meydanında 1 may və s. parad və tədbirlər keçirilirdi. SSRİ-nin son illərində isə burada keçirilən tədbirlər təklənmiş, ədalətsizliklə üzləşmiş xalqın etiraz nümayişləri idi. 2020-ci il dekabrın 10-da baş tutan Zəfər paradı Azadlıq meydanının xarakterini dəyişərək onu möhtəşəm Zəfərimizin, ərazi bütövlüyümüzün bərpasının və Azərbaycan-Türkiyə birliyinin təntənəsinin qeyd edildiyi əsas məkana çevirdi”.

**İsmayıl**

# Gürcüstan üçün meydan da, qapı da açıqdır

## “İndiki vəziyyətdə ”3+3” formatından kənarda qalmaq doğru olmaz”

**Türkiyə və Azərbaycan dövlət başçılarının təklif etdiyi ”3+3” formatındakı regional əməkdaşlıq platformasının ilk iclası sabah Moskvada keçiriləcək. Bu barədə Türkiyə Xarici İşlər Nazirliyi məlumat yayıb.**

Məlumata əsasən iclasda Azərbaycan, Türkiyə, Rusiya, İran və Ermənistan XİN başçılarının müavinləri bir araya gələcək. Xatırladaq ki, bu platformanın başlıca məqsədi Cənubi Qafqazda daimi sülh və sabitliyin yaradılmasına xidmət etməkdir.

Qeyd edək ki, Gürcüstan tərəfi bu görüşə qatılmayacaq.

Maraqlıdır, tərəflərlə bir sıra iqtisadi və siyasi əlaqələrə malik qonşu ölkə Gürcüstan hansı səbəbdən ”3+3 formatı”ndan imtina edir?

**Mövzunu ”Şərq”ə şərh edən politoloq İlqar Vəlizadə burda əsas səbəbin Rusiya amili ilə bağlı olduğunu bildirib:** ”Gürcüstan Rusiyanı işğalçı dövlət hesab edir. Ona görə də onunla bir masa arxasında əyləşmək istəmir. Amma çox maraqlı hal müşahidə olunur. Biz də Ermənistanı işğalçı ölkə kimi tanıyırdıq və onlarla bir masa arxasında əyləşmirdik. Avropanın ”Şərq tərəfdaşlıq formatı” var idi ki, orda Azərbaycan və Ermənistan münasibətləri olmasa da təmsil olunurdu. Bəzi hallarda münasibətləri tənzimləməyə məcbur oluruq. Bizim kimi Gürcüstan da belə platformada təmsil oluna və platformaya daxil olan digər ölkələrlə əməkdaşlıq çərçivəsində əlaqələr qura bilər”.

“Çünki hazırda həm regiondan kənar, həm də regiondaxili ölkələr burda iştiraka meyillidirlər”



Politoloq müqayisə apararkən Ermənistanla heç bir siyasi və iqtisadi münasibətlərimiz olmadığı halda bir ortamda ola bildiyimizi xatırladıb və Gürcüstanla Rusiya arasındakı durumun tam fərqli olmasına diqqət çəkib: ”Rusiya səhv etmirəmsə, hətta Gürcüstanın üçüncü ticarət tərəfdaşı sayılır. Onların arasındakı ticarət mübadiləsi təxminən bir milyard yarım dollar həcmində müəyyən olunub.

Digər tərəfdən pandemiyadan qabaq tərəflər arasında turistik əlaqələr də yaxşı olub. Eyni zamanda Bakı-Tbilisi-Ceyhan qaz xətti ilə Rusiyadan Türkiyəyə oradan da Gürcüstanın üzərindən Ermənistana mallar ötürülür. Digər müxtəlif layihələr də var. Bütün bunlar iki dövlət arasındakı faktiki əlaqələrin olduğunu göstərir”.

**İ.Vəlizadə bütün bu səbəblərdən Gürcüstanın belə bir addımının o qədər də anlaşılan olmadığını söyləyib:** ”Tərəflər arasındakı münasibətlər ya tam kəsilsin, ya da mövcud əlaqələr fonunda dialoqlar aparılaraq bəzi siyasi məsələlərə aydınlıq gətirilsin. Bütün hallarda Gürcüstan üçün meydan açıqdır. İndiki halda bu formatdan kənarda qalmaq doğru olmaz. Çünki həm regiondan kənar, həm də regiondaxili ölkələr burda iştiraka meyillidirlər.

Bu format gələcəkdə regionda gedəcək prosesləri müəyyən edəcək. Gürcüstan üçün ondan kənarda qalmaq faydalı olmaz”.

**Günəş Mərd**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

Məlahət Rzayeva

**Vətən müharibəsi dövründə xaricdə fəaliyyət göstərən diaspor təşkilatları yardım üçün daim müraciət edirdilər. Bu səbəbdən "YAŞAT" marafonu təşkil etdik və 63 ölkədən soydaşlarımız maddi yardıma qoşuldu. Bu fikirləri Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov "Yaşat" Fondunun bir illik fəaliyyətinə dair mətbuat konfransında çıxışı zamanı bildirib. Komitə sədri qeyd edib ki, xaricdə yaşayan soydaşlarımızın marafona qoşulması nəticəsində bir milyon manatdan artıq vəsait toplandı və "YAŞAT" Fonduna köçürüldü:**

"Üç ay ərzində isə 3 milyon manatdan çox vəsait toplanmışdı. ABŞ-dan isə 200 min dollar ianə toplanılmışdı. Rusiyadan 30 min dollar dəyərində 2 ədəd "Dermaton" cərrahi aparatı, 92 ədəd "İlizarov" aparatı və 566 əlil arabası göndərilmişdi". Qeyd edək ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu - "YAŞAT" Fondu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı əsasında yaradılıb. Fondun məqsədi şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformanın yaradılması, bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsidir. Həmçinin Fond Fərmanla müəyyən edilmiş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi üçün şəffaf, effektiv və əlçatan platformanın formalaşdırılması məqsədilə təsis olunub. Qeyd etməliyik ki, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız, fəaliyyət göstərən diaspor təşkilatlarımız Zəfər günündən ötən 1 il ərzində ianələrini dayandırmadı. Bu işdə diaspor təşkilatlarının fəaliyyəti xüsusi vurğulanmalıdır. Diaspor təşkilatlarının soydaşlarımızla apardığı məqsədyönlü fəaliyyətin nəticəsidir ki, dünya azərbaycanlıları həqiqətən də alqışalayiq həmrəylik nümayiş etdirdilər, harada, hansı ölkədə yaşamasından asılı olmayaraq hər kəsin ürəyi Azərbaycanla, Qarabağla döyündü. Azərbaycan Diasporuna Dəstək Fondunun icraçı direktoru Əkrəm Abdullayev də bildirib ki, 44 günlük Vətən müharibəsi dövründə xaricdə yaşayan soydaşlarımız da yardım etməyə başlamışdı: "Bu yardımlar bu günə qədər davam edir. Düşündük ki, bu həmrəyliyi göstərmək üçün, gündəmdə saxlamaq üçün marafon keçirək. Biz poruna Dəstək Fondunun təşkilatçılığı ilə reallaşdırılıb. "Qələbəni bizə yaşadanları birlikdə yaşadaq" şüarı altında keçirilən marafonun məqsədi yaralananlara və şəhidlərimizin ailələrinə dəstək məqsədi ilə dünya azərbaycanlılarını "dəmir yumruq" ətrafında birləşdirmək olub. Nəticələrə baxanda xeyirxah məqsədə nail olunduğu görünür. Xaricdən, diaspor nümayəndələrimiz sırasından ən çox ianə edən ölkələrin ilk beşliyində isə müvafiq olaraq Türkiyə, Ukrayna, Rusiya, Böyük Britaniya, İsrail yer alıb. Marafonda 63 ölkədən soydaşlarımız, Azərbaycana dost



# Vətən müharibəsində 50 milyonluq xalq bütövlük nümunəsi ortaya qoydu

## Xaricdə yaşayan soydaşlarımız hər zaman özlərini Ana Vətənin bir parçası hesab edirlər

istədiyimizə, qarşıya qoyulan məqsədə çatdıq. Marafon televiziyada işıqlandırılan zaman Fondun işləri, xaricdəki diaspor fəaliyyəti əks olundu, tanınmış insanların xaricdəki soydaşlarımıza çağırışı oldu. Hədəfimiz təkcə soydaşlarımız deyil, xarici partnyorları da bu işə cəlb edib, marafonu işıqlandırmaq idi. Bununla bağlı xaricdə 50-yə yaxın veriliş, məlumat yayılıb. Ənənəvi ölkələrdən əlavə, çox məhdud sayda soydaşımızın yaşadığı bizə uzaq ölkələrdəki soydaşlarımız da marafona qoşulublar. Bu, müstəqillik tarixində Azərbaycan diasporunun ilk marafonu idi, gələcəkdə də bunu davam etdirmək istəyirik. Xaricdəki soydaşlarımız dəstəklərini heç vaxt əskik etməyib. Dünya Ahıska Türklərinin Birliyi Təşkilatı da 9 ölkədə öz təşəbbüsləri ilə bu marafonun kiçik formasını təşkil edib, yığılan ianələri Azərbaycana göndəriblər". Məlumdur ki, "Yaşat" marafonu Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin və "YAŞAT" Fondunun təşəbbüsü, Azərbaycan Dias-

> "Xaricdən, diaspor nümayəndələrimiz sırasından ən çox ianə edən ölkələrin ilk beşliyində müvafiq olaraq Türkiyə, Ukrayna, Rusiya, Böyük Britaniya, İsrail yer alıb"

insanlar, eləcə də ölkəmizdəki yerli icmaların üzvləri iştirak ediblər. 6 ölkədən, o cümlədən ABŞ, Türkiyə, İsrail, İtaliya, Banqladeş və Pakistandan xaricilər marafona qoşulmaqla bağlı çağırışlar səsləndiriblər. Marafonun əhatə dairəsi olduqca geniş olub və marafonda hətta Baham adalarından, Trinidad və Tobaqodan, Kolumbiyadan, Braziliyadan, Ekvadordan da insanlar iştirak ediblər.

Xaricdə yaşayan azərbaycanlıların və Azərbaycanı sevən insanların xeyriyyə marafonunda fəal iştirakının təmin olunmasında son 3 ildə müxtəlif ölkələrdə yaradılan Koordinasiya Şuraları və Azərbaycan evləri ciddi rol oynayıb.

**Xaricdə yaşayan soydaşlarımızın "Yaşat" Fonduna ianələrin toplanmasında fəallıq göstərməsində diaspor təşkilatlarının fəaliyyətinin də böyük əhəmiyyət daşıdığını deyən politoloq Elçin Mirzəbəyli "Şərq"ə açıqlamasında qeyd etdi ki, milləti millət kimi tanıdan onun ən çətin, kritik anlarda birləşə bilməsidir:**

- Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində məhz bunu dünyaya nümayiş etdirdi. Vətən müharibəsində qələbənin əldə edilməsində Ali Baş Komandanın qətiyyəti, əsgərlərimizin igidliyi, şücaəti, ordumuzun gücü hansı əhəmiyyəti daşıdısa, xalqımızın sahib olduğu yüksək mənəvi keyfiyyətlər və birləşə bilmək bacarığı da o qədər əhəmiyyət daşıdı. Harda yaşamasından asılı olmayaraq 50 milyonluq xalq bütövlük nümunəsi ortaya qoydu. Xaricdə yaşayan soydaşlarımız hər zaman özlərini Ana Vətənin bir parçası hesab edirlər. Bunu da xüsusi vurğulamalıyıq ki, dünya azərbaycanlılarının həmrəylik anlayışı ümummilli lider Heydər Əliyev tərəfindən irəli sürülüb və bugünkü nəticələrə baxanda onun necə də vacib bir çağırış olduğu görünür.

**E.Mirzəbəyli qeyd etdi ki, xaricdə yaşayan soydaşlarımızın istər "Yaşat" Fondu, istərsə də digər ümummilli məsələlərdə həmrəylik nümayiş etdirməsində diaspor təşkilatlarının da əməyi vurğulanmalıdır:**

- Böyük üstünlük bundadır ki, Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyəti ilə bağlı aparılan islahatlar xaricdəki diaspor təşkilatları arasında olan müəyyən ziddiyyətləri aradan qaldırmış oldu. Diaspor quruculuğu fəlsəfəsi də dəyişdi. Bu işdə təbii ki, cənab Prezident İlham Əliyevin diasporla bağlı yürütdüyü məqsədyönlü siyasət böyük əhəmiyyət daşıyır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# "Çoxlu xəyallarımız vardı, gerçəkləşdirə bilmədik"

## Xüsusi təyinatlı şəhidimizin xanımı o səksəkəli günlərindən danışdı



**Şəhidlik uca bir zirvədir. Hər kəsə qismət olmur. Onlar daim yaşayırlar. Qəlblərdə, könüllərdə, xatirələrdə, ruhumuzda və heç vaxt silinməyəcək tarixdə.**

44 günlük Vətən müharibəsində şəhid olmuş, Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin leytenantı olan Kənan Məmmədov da adını Azərbaycanın qəhrəmanlıq salnaməsinə yazdırmış igidlərimizdəndir.

Kənan Məmmədov 1993-cü il oktyabrın 22-də Ucar rayonunun Alpout kəndində anadan olub. 2013-2017-ci illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsində ali təhsil alıb. 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Kənan Məmmədov sentyabrın 30-da Murovdağ döyüşləri zamanı şəhid olub.

Qəhrəmanımızın yaşadığı evi ziyarət etdik. Yaxınları ilə Kənanla bağlı söhbət apardıq. Onun haqqında o qədər gözəl danışırdılar ki, onda anladım ki, Kənan şəhid olmaq üçün doğulub. Vətənpərvər, xalqına, torpağına bağlı, mərd, məğrur, qisas hissi ilə alışıb-yanan şəxsiyyət olub.

Hətta onun telefonunda belə yazı tapılmışdı. "Önəmli olan iki şey var, dostlar! Vətən və yanımızdakı adam. Bu ikisi üçün ölər və öldürərsiniz". Kənan da belə etdi. Vətəni üçün həm öldü, həm öldürdü.

Anası Gülnisə xanım şəhidimiz haqqında deyir: "Ailədə 2 qardaşdılar. Hərbiyə sevgisi qardaşının hərbçi olmaq istəyindən irəli gəlirdi. Çox çətin vəziyyətlərimiz olub. Özüm oxumadığım üçün daim övladlarımın oxumuş, savadlı olmağını istəmişəm. Kənan mənim bu arzumu ürəyimdə qoymadı. Gecə səhərə kimi oxumaqla məşğul idi. Gecə nə vaxt ayılsam, onu dərs çalışarkən, oxuyarkən görürdüm. Çox məsuliyyətli idi. Nəhayət, 2013-cü ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsinə daxil oldu. 4 ildə onun bir dənə də kəsiri olmadı. Müəllimləri də onu çox sevirdi. Ümumiyyətlə, onun xətrini hamı çox istəyirdi. Sonuncu dəfə Kənandan ayrılanda mənimlə iki dəfə görüşdü. Müharibənin başlayacağından xəbərim olmadığı üçün səbəbini anlaya bilmədim. Sonra Kənan getdi. Müharibə başladı və mənim oğlum vətəni, torpağı uğrunda qəhrəmancasına şəhid oldu. İndi anlayıram niyə belə etdi. O şəhid olacağından əmin idi. Kənan bilirdi ki, bu, bizim son görüşümüzdür".

Anası Kənan haqqında həm kədər, həm də qürur hissi ilə danışır. Gözlərində həm qəm, həm də qürur hissi var. Saçları ağarmış, gözlər hər an yağacaq yağış kimi dolmuşdu. Ana üçün övlad acısı həqiqətən çətindir. Kənan kimi oğlu itirmək isə iki qat çətindir. Gülnisə xanım əsl mərd Azərbaycan qadınıdır. Elə mərd, məğrur ananın Kənan kimi də oğlu olmalı idi.

**Şəhidimiz öz sevdiyi xanım - Məmmədova Günel ilə 6 ay idi ailə həyatı qurmuşdu. Günel xanım Kənan haqqında bunları söyləyir:**

- Çox vətənpərvər, igid və cəsur bir oğul idi. Vətənini düşmən tapdağı altında görəndə canı rahatlıq tapmırdı. Hər zaman "Mən bu yolda öləcəyəm, Vətənim üçün mən getməyim də, kim getsin?" - deyirdi.

Kənanla 2018-ci ildə tanışlarımız sayəsində tanış olmuşduq. O zaman Kənan Harami adlanan ərazidə ön postda xidmət edirdi, mən isə universitetdə 1-ci kursda oxuyurdum. Dostluqla bizim gözəl hekayəmiz başladı. O qədər gözəl idi ki, hər şey. Elə bilirəm hər şey nağılmış, ya mən bütün bunları yuxuda görürmüşəm. Heç bir sözlə bunu ifadə etmək olmaz. Daha sonra Kənan xüsusi təyinatlı kursuna getdi və gələn kimi elçilik oldu. Çox xoşbəxt idik, hər şey bizə gözəl gəlirdi. Kənan kinoya baxmağı, kitab oxumağı çox sevirdi. Birlikdə dərs oxuyurduq, mənə dərslərimdə kömək edirdi, birlikdə kinolara baxırdıq. Çox xəyallarımız var idi, gerçəkləşdirə bilmədik. Mənim hər şeyə hazır olmağımı istəyirdi və deyirdi: "Nə olsa, özünü itirmə, sən güclüsən". Döyüşə gedərkən mənə təlimə getdiyini dedi və mən ondan neçə günə gələcəksən soruşanda, mənə 1 həftəyə gələcəyəm - dedi . Həqiqətən də 1 həftəyə gəldi, amma 3 rəngli bayrağa bükülmüş tabutda... Müharibənin olacağını təxmini bilirdik.







Kənan gecə-gündüz işləyirdi. O, döyüşə çox hazır idi, amma indiki hazırlığın başqa olduğunu hiss edirdim. Hərbçi xanımı, əsas da kəşfiyyatçı xanımı olmaq çox çətindi. Qorxu, həyəcan içində olursan. Amma bunun özü də bir şərəf idi. Kənanla ilk tanış olanda mənə həyatımızın çətin olacağını demişdi. Demişdi ki, "Həyatımız asan olmayacaq, çox keşməkeşli yollardan keçəcəyik, hazırsanmı mənimlə bu həyata?". Məndə ömrümün axırına qədər razıyam demişdim. Bundan heç peşman deyiləm".

İki gəncin sevgilərini təəssüf ki, yalnız bir şəxsin dilindən dinlədim. Amma Kənanın da Güneli nə qədər sevdiyini hiss elədim. Bilirəm ki, Kənan daim Günelin yanındadır. Onu tək hiss etməyə qoymur. Onların saf, dərin sevgiləri bu dünyada başladı, cənnətdə davam edəcək. Sevənlər əlbət bir gün qovuşacaq, yarım qalmış hekayələrini yenidən davam etdirəcəklər.

**Qeyd etdiyim kimi, Kənan Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirib.**

**Fakültədəki müəlliməsi Sevinc xanım onun haqqında deyir:**

"Bunu çətindir danışmaq. Mən hələ dərk etmirəm ki, Kənan həyatda yoxdur. Mən onun ölümü ilə barışa bilmirəm. Ağlım bunu dərk edir, amma ürəyim onun ölümünü anlamaq istəmir. Kənan haqqında çox danışmaq olar. O, ən sevimli 066 qrupumun tələbəsi idi. Bu qrupu çox sevirdim. Kənan da xüsusi bir tələbə idi. Çox məsuliyyətli, tərbiyəli idi. Böyüklərə ayrı, kiçiklərə ayrı hörmət edirdi. Mühazirə oxuyanda hər zaman əlini qaldırıb sual verərdi. Dərs danışanda da ətraflı danışmağı çox sevirdi.

Bütün müəllimlər onun xətrini çox istəyirdi. Belə tərbiyəli oğlu böyüdüb boya-başa çatdırdığına görə həmin valideynlərin qarşısında baş əyirəm. Tələbə vaxtı ən yaxın dostu Kamran idi. Yadımdadır ki, məzun olan vaxtdan sonra belə mənimlə görüşə gəlirdilər. Bir dəfə 8-ci mərtəbədə kompüter otağında idim. Məni gəlib tapdılar. Hətta Kənan hərbçi paltarında idi. Kənanı bəzən yuxularıma da gəlir. Onu görüb sevinirəm və "bilirdim ki, sən sağsan deyirəm", o isə yalnız gülür".

**Sevinc xanımla danışarkən diqqətimi bir şey çəkdi. Kənandan danışanda indiki zaman şəkilçilərindən istifadə edirdi. Səbəbini soruşanda isə dedi:**

"O yalnız keçmişdə olmayıb, Kənan indi də var və olacaq". Bu cavabdan çox təsirləndim.

Kənanın qardaşı Anar Məmmədov da Xüsusi Təyinatlı Qüvvələrin kursunu bitirib. Və anasının da qeyd etdiyi kimi Kənanın hərbiyə sevgisi qardaşından qaynaqlanırdı.

Anar qardaşı haqqında danışır:

"Kənan mənə uşaqlıqdan dədə" deyə müraciət edib. Adımı çağırmayıb heç. Evdə də deyirdilər ki , "Anar de" deyirdi ki, yox Anar deyəndə elə bilirəm ki, yad adamı çağırıram. Bir-birimizə çox bağlı idik. Uşaq vaxtı bizə ən çox kimi istəyirsən sualını verəndə mən Kənanı, Kənan da məni deyirdi. O təkcə mənə qardaş olmayıb. Həm dost, həm sirdaş, bir sözlə, hər şeyim idi. Bir sinifdə oxumuşuq.

Vətən müharibəsində bir vuruşmuşduq. Sonra biz ayrılmalı olduq. Ayrılarkən məni möhkəm qucaqladı və dedi. Söz ver ki, şəhid olmayacaqsan və mən ona söz verdim. Mən də ona belə dedim, o isə sadəcə güldü və "baxarıq" dedi.

Kənan artıq mənə o qədər yaxın gəlirdi ki, elə bil onu neçə ildi tanıyırdım. İnsanı yaşadan içindəki ruhudur. İnsan dünyasını dəyişəndə ruh bədənini tərk edir. Yəni Kənanın ruhu hər yeri dolaşır və o, sağdır".

Nigar İmanova

# Peşə təhsilinə üz tutanların sayı 30 faiz artıb

## Bu maraq gələcəkdə böyük dəyişikliyə gətirib çıxaracaq



**Elşən Ramizoğlu:** “Etiraf edək ki, ixtisasını yaxşı bilən bir kompüter mühəndisi bir çox məmurlardan hətta yaxşı qazanc əldə edir. Bu məsələyə də diqqət etsək, daha faydalı olar”

**”Əsas problemlərdən biri məktəb məzunlarının ixtisas sahibi olması məsələsidir. Bu, indinin problemi deyil, hazırda bu sahədə vəziyyət nisbətən daha yaxşı olsa da hələ də həlli istiqamətində daha çox iş görməliyik”.**

Bu fikri Azərbaycan Karyera İnkişaf Forumunda Təhsil naziri Emin Əmrullayev səsləndirib. Nazirin sözlərinə görə, Azərbaycanda hər il doğulan 150-160 min uşaq məktəbi və ya hər hansı təhsil prosesini bitirəndə əmək bazarına hər hansı bir ixtisası olmadan daxil olur: ”9-cu sinfi bitirir, əlində attestatı var, heç bir ixtisası yoxdur, 11-ci sinfi bitirir, yenə də eyni problem. Bütün təhsil müəssisələrində oturacaqların sayı ilə doğulan uşaqların sayı arasında da bəlli bir fərq var. Bu fərq ona görədir ki, bir çox hallarda insanlar təhsillərini davam etdirmək istəmir”. Nazir deyib ki, ali və peşə təhsili arasında fərq var: ”Son dövrlərdə peşə təhsilində artım müşahidə olunur. Peşə təhsilinə qəbul olmaq istəyənlərin sayında 30 faiz, qəbul olanların sayında isə 12 faiz artım var. Hazırda peşə təhsilində təhsil alanların sayı 26 600 nəfərdir”. Ali təhsil məsələsinə gəldikdə isə nazir deyib ki, 1990-cı illərin əvvəlində ali məktəblərə qəbul planı 15-16 min idisə, hazırda bu rəqəm 48 min civarındadır: ”Son 5 ildə ərizə verənlərlə qəbul olanlar arasında fərq 2-dən aşağı düşüb. Hazırda qəbul planı 48 mindirsə, ərizə verənlərin sayı təxminən 80-90 min olur. Hər il ali təhsil müəssisələrinə rekord sayda qəbul olur”. E.Əmrullayev deyib ki, artıq yüksək peşə ixtisasları da açılıb, bunun fərqi odur ki, kollec məzunları subbakalavr pilləsində ali məktəblərə qəbul ola bilir: ”Bundan sonra peşə təhsilində artım labüddür. Qısa müddətli peşə hazırlığı və ya təlimlər də olduqca innovativ həll yoludur. Çünki bir çox ixtisaslar yenidir, həm bizim üçün, həm də dünya üçün. Ənənəvi sahələr yavaş-yavaş sıradan çıxıb, yeni sahələr daxil olur. Bu kurslara 3-6 müddətində cəlb olunanların demək olar ki, yarısı işlə təmin olunur”.

**Peşə təhsilinə marağın artmasının nə kimi üstünlükləri var? Məsələyə münasibət bildirən təhsil eksperti Elşən Ramizoğlu ”Şərq”ə açıqlamasında qeyd etdi ki, peşə təhsilinə marağın artması ölkəmiz üçün böyük əhəmiyyət kəsb edir:**

- İstər peşə məktəblərinin, istərsə də peşə təmayüllü siniflərin açılması təhsilalanlarda böyük dəyişikliyə gətirib çıxardır. Bir faktı nəzərinizə çatdırım. İşlədiyim Bərdə şəhər S.Behbudov adına 6 saylı tam orta məktəbdə peşə təmayüllü sinif açılıb. Burada dərzilik və kompüter üzrə bilik və bacarıqlar öyrədilir. Şagirdlər üçün çox maraqlıdır. Peşə təhsilinə marağın artması əmək bazarının tələblərinə də müsbət təsirini göstərəcək.

”Adətən qiymətləri aşağı, təhsildə zəif uşaqlar 9-cu sinifdən sonra məktəbi tərk edir, kolleclərə, peşə məktəblərinə üz tuturlar. Bunun bir səbəbi də imkansız ailələrin öz uşaqlarını repetitor yanına göndərə bilməməsidir. Peşə təhsilinə marağın artırılmasının bir səbəbi də təhsilin əlçatanlığının azalması ola bilərmi” sualına cavabında isə E.Ramizoğlu qeyd etdi ki, burda valideynlərinin də rolu böyükdür:

- Əgər şagird özünü ali təhsil müəssisəsində doğrulda bilməyəcəksə, lakin peşə məktəbində sevdiyi bir peşəyə yiyələnəcəksə, bu cəmiyyət və şəxs üçün daha faydaları olar. Bu barədə təbii ki, müəllimlər və valideynlərlə maarifləndirmə işi aparılmalıdır. Valideyn övladı üçün yalnız ali təhsil müəssisəsi fikirləşməməlidir. Təcrübə də göstərir ki, valideynlər övladlarının daha çox ali təhsil almasını istəyir. Zaman keçdikcə, bu düşüncədə də dəyişiklik olacaq. Etiraf edək ki, ixtisasını yaxşı bilən bir kompüter mühəndisi bir çox məmurlardan hətta yaxşı qazanc əldə edir. Bu məsələyə də diqqət etsək, daha faydalı olar.

**Məlahət Rzayeva**

# "Şəklimi görüb infarkt keçirirlər"



**“Şəklimizi görən kimi infarkt keçirənlər var. Deyirlər, bu niyə ölmür, niyə yaşayır? Bunu yazdıranlar da var”.**

Bu sözləri Əməkdar artist Ruhəngiz Allahverdiyeva ”Tam vaxtıdır” proqramında deyib. Müğənni sosial şəbəkədə yazılan tənqidlərdən danışıb və gileylənib.

Həmkarı Yusif Mustafayevin ”Cavab ver ki, əzizlərin ölsün” sözünə ifaçı etiraz edib:

”Günahdır, əzizləri valideynləridir. Necə deyim? Sərhəddi saxlamışam, amma çox keçsələr pozmalıyam. Mənim də öz siyasətim var, o yolla bilirəm nə edəcəm. Heç kimin dədə, nənəsinin çörəyini yemirəm. 8 yaşımdan zəhmət çəkirəm. Deyəcəklər, o yaşda işləmək olar? Ailədə bəzi işlər olub etmişəm. Öz zəhmətimlə bu yerə gəlmişəm, haram yemirəm. Bu sözlər mənə aid ola bilməz. Paxıllıqdan deyirlər”.

# Gülyanaq Məmmədova arzusuna çatdı

## O, bu dəfə tamaşaçı qarşısına aktrisa kimi çıxacaq



**Xalq artisti Gülyanaq Məmmədova aktrisa olmaq arzusunu gerçəkləşdirib.**

Müğənni bu haqda MTV-yə açıqlamasında deyib. O bildirib ki, bu dəfə tamaşaçı qarşısına aktrisa kimi çıxacaq:

”Ən böyük arzum aktrisa olmaq olub. ”Burulğan” serialında Leyla obrazında çəkilmişəm. Yaxın günlərdə məni görəcəksiniz. İnanıram ki, seviləcək”.

**Elanlar**

Bakı Avrasiya Universiteti tərəfindən Muradlı Qüdrət Qərib oğluna 19 yanvar 2017-ci il tarixdə verilmiş AA N 086719 nömrəli Bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

Fərzəliyev Samir Nurəddin oğluna məxsus əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

# Qəzalı məktəblər təkcə İmişlidə deyil

## Şamaxı, Quba, həmçinin ölkənin Qərb rayonlarında da təmirə ehtiyacı olan təhsil ocaqları çoxdur



**İmişli rayon Qaravəlli kənd tam orta məktəbinin binası illərdir qəzalı vəziyyətdədir. Hətta sinif otağında dərs zamanı siçovullar dolaşır. 1973-cü ildə inşa edilən məktəb binasında 153 şagird yeri var. Qaravəlli kənd sakinlərinin sözlərinə görə, vaxtilə təhsil aldıqları məktəb elə həmin dövrdə də təmirsiz vəziyyətdə olub. Lakin hər zaman yüksək nəticələr göstərib. Odur ki, yeni məktəb binasının tikilməsi labüddür.**

Məsələ barədə İmişli Rayon Təhsil Şöbəsindən bildirilib ki, Qaravəlli kənd tam orta məktəbi uyğunlaşdırılmış binada yerləşdirilib. Təhsil Nazirliyi (TN) yeni məktəbin tikintisini plana salıb, təsdiq edib. Növbəti ildən yeni məktəb binasının inşası nəzərdə tutulur.

**İstismara yararsız mövcud məktəblər barədə ”Şərq”ə danışan təhsil üzrə ekspert Elçin Əfəndi bildirib ki, Təhsil Nazirliyinə ilkin olaraq 1,5 milyon manat ayrılıb: ”Amma hələ də təmirsiz, istifadəyə yararsız məktəblər var. Dövlət başçısı tərəfindən prioritet məsələ kimi məktəb tikintiləri əsas götürülsə də, təəssüf ki, nazirlik tərəfindən bu istiqamətdə işlər ləng aparılır**. 4430 məktəb mövcuddur, amma onlardan təxminən 100-dən çoxunun əsaslı təmirə ehtiyacı var. Xüsusilə də ucqar kəndlərdə bu tip təhsil ocaqlarına daha çox rast gəlinir. Dövlət bununla bağlı müvafiq proqramlar həyata keçirir. Hər il ölkə başçısının sərəncamı ilə modul tipli məktəblər tikilir. Bu modul tipli məktəblər ən azından təmirsizlər bərpa olunana kimi istifadəsi mümkündür. Həmçinin modul tipli məktəb formasında tədrisin davam etdirilməsi nəzərdə tutulur”.

**Ekspert qeyd edib ki,TN müvafiq olaraq bəzi layihələrin həyata keçirilməsi üçün vəsaitlər ayırır:** ”Təəssüf ki, bu tip kateqoriyya aid olan məktəblərin təmirinə biganə yanaşılır. Bunu açıq şəkildə deməkdən çəkinmirik. Təkcə İmişli deyil, Şamaxı, Quba, həmçinin ölkənin Qərb rayonlarını da hazırkı durum əhatə edir. Həmin bölgələrdəki təhsil müəssisələri şagird sayı az olmasına baxmayaraq yenə də təmir olunmalıdır. Ən azından həmin ərazilərdə modul tipli məktəblər inşa oluna bilər. Şagirdlərin dərs oxumaq imkanları daha da yaxşılaşdırılmalıdır. Tədrisin təşkili və reallaşdırılmasına uyğun daha çox təhsil ocaqları olmalıdır. Onlar istilik sistemi ilə təmin olunmayan, əlverişsiz imkanlara malik siniflərdə təhsilini davam etdirə bilməyəcək. Bütün bunları TN, müvafiq qurumlar nəzərə almalıdır”.

**E.Əfəndi diqqətə çatdırıb ki, tədris ilinin müəyyən bir hissəsini başa vurmuşuq:** ”Növbəti tədris ili başlayana qədər təmirsiz, dağılmış məktəblər restavrasiya olunmalıdır. Eyni zamanda onların əvəzinə yeni məktəblər tikilməlidir. Hesab edirəm ki, şagird sayı az olan məktəblər modul tiplilərlə əvəzlənə bilər”.

**Sücayət Mehti**


Beynəlxalq İxtiraçılıq
və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com


# İntiharın yaşı olmur

## Cavan da, qoca da çarəsiz qalanda ən sonuncu addımını atır



**Fərqanə Mehmanqızı:** “İnsanlar nəinki digər insanları, həmçinin özlərini dinləyə bilmirlər”

**Rövşən Nəzərli:** “Koronavirus pandemiyası, iqtisadi vəziyyət və müharibə orta yaşlı insanlarda psixoloji gərginliyə səbəb oldu”

**Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, hər il orta hesabla 800 min insan öz həyatına son qoyur. Bütün dünyada müxtəlif üsullarla bunun qarşısı alınmağa çalışılsa da, intihar hadisələri davam edir.**

Son zamanlar Azərbaycanda da analoji hallar artır. Statistikalara əsasən deyə bilərik ki, intihar dünyada daha çox 15-19 yaşlı gənclər arasında baş verir. Lakin son günlərdə Azərbaycanda orta və müdriklik yaşına çatmış insanların ardıcıl intihar xəbərləri ilə rastlaşırıq.

Elə dünən Ağdam sakini, 65 yaşlı Rüstəmov Bakir Əli oğlu yaşadığı həyətdə yardımçı tikilidə özünü asıb. Srağagün isə paytaxtda 2 intihar hadisəsi qeydə alınıb. Paytaxt sakini 44 yaşlı Rövşən Süleymanov həyətdə özünü asaraq intihar edib. Digər intihar hadisəsi Nəsimi rayonunda baş verib. 47 yaşlı Oqtay Zeynalov 19 mərtəbəli binanın dördüncü mərtəbəsindən özünü ataraq həyatına son qoyub. Son 2 gün ərzində 3 orta yaşlı şəxsin intiharı cəmiyyətdə ciddi suallar doğurur.

Məşhur bir aforizmdə deyilir: İntihar edən insan əslində ən çox yaşamağı istəyən insandır. Bəs, Azərbaycanda intihar edən şəxslər kimlərdir və hansı səbəblərə görə bu yola əl atırlar?

**Bunun səbəbləri barədə ”Şərq”ə danışan psixoloq Fərqanə Mehmanqızı bildirib ki, intiharın əsl səbəbləri daxildə yatır:**

”Özgüvənsizlik, asosiallıq və gərəksiz eqo və s. gənclərdə daha çox rast gəlinən elementlərdir. Bunların yaranmasında əsas səbəb ailə faktorudur. Bilirik ki, şəxsiyyətin formalaşması uşağın ətrafındakı insanların ona qarşı münasibətindən asılıdır”.

**F.Mehmanqızı hesab edir ki, intihar hadisələrində yaşın fərqi yoxdur:**

”Hər yaş dövründə baş verən intiharın əsas səbəbi daxildən gəlir”.

Psixoloq diqqətə çatdırıb ki, intihar mərhələsində olan insanlara yardım edə bilərik: ”Bu gün empatiya bacarığı aşağı düşüb. Həmçinin insanlar arasında dinləmə bacarığı da azalıb. İnsanlar nəinki digər insanları, həmçinin özlərini dinləyə bilmirlər”.

**Psixoloq Rövşən Nəzərli isə düşünür ki, koronavirus pandemiyası iqtisadi vəziyyət və müharibə orta yaşlı insanlarda psixoloji gərginliyə səbəb oldu. Bu da intiharlara gətirib çıxarır:**

”Bunu da bilmək lazımdır ki, intihar edən şəxs sadəcə öz həyat yoluna son qoymuş olmur. İntihar hadisəsi həmin şəxsin yaxınlarına və yaxud bu kimi xəbərləri oxuyan digər insanlara da təsir göstərə bilir.

Keçən il ABŞ-da dərc edilmiş bir məqalədə deyilir ki, araşdırmalara görə, hər bir intihar hadisəsi ortalama 135 nəfər insana təsir göstərir. Bu yerdə deyə bilərik ki, intihar çətinlik və dərdləri sizdən uzaqlaşdırmır, onu başqa birinə ötürür”.

**Çimnaz Şahlar**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2588



## Boris Conson yeddinci dəfə ata olub

### Baş nazirin qızı dünyaya gəlib

**Böyük Britaniyanın Baş naziri Boris Conson yeddinci dəfə ata olub.**

Baş nazir və hazırkı həyat yoldaşı Kerrinin ikinci övladı - qızı dünyaya gəlib.

Onların ilk körpəsi Uilf 2020-ci ilin aprelində anadan olub.

*Qeyd edək ki, Boris Consonun bundan əvvəlki evliliyindən 5 övladı var.*

## 23 yaşlı müğənni mənzildə ölü tapıldı



**2013-cü ildə "America's Got Talent" yarışında özünü sınayan, müğənni Skayler Hiks Cənubi Karolina ştatının Liberti şəhərində vəfat edib.**

Axşam.az xarici mediaya istinadən xəbər verir ki, 23 yaşlı gənc ifaçının cəsədi dekabrın 6-da dostunun evində aşkarlanıb. Onun hansı səbəbdən öldüyü açıqlanmayıb. Ailəsinin verdiyi məlumata görə, gənc müğənninin psixoloji problemləri olub.

Skayler depressiyadan və narkotik vasitələrdən asılılıqdan müalicə alırmış. İfaçının anası qızının cəsədi aşkarlanan evin sahibini tanımadığını da vurğulayıb. Faktla bağlı cinayət işi açılıb.

*Qeyd edək ki, Skaylerin iki il eşq yaşadığı 29 yaşlı sevgilisi də bu ilin mayında avtomobil qəzasında dünyasını dəyişib.*



# Dünyanı dəhşətə salan işgəncə!

### 6 yaşlı uşağı ögey anası öldürdü





**Eşidənlərin qanını dondurur. Öz atası və ögey anası tərəfindən müxtəlif işgəncələrə məruz qalaraq ölən 6 yaşlı uşağın yaşadıqları, bütün dünyanı dəhşətə gətirib**

İngiltərədə baş tutan məhkəməyə dəlil olaraq təqdim edilən təhlükəsizlik kamerasındakı görüntülər görənləri şoka salıb. 6 yaşlı günahsız bir uşaq, "Kimsə məni sevmir" deyə ağladığı kamera qeydindən qısa bir müddət sonra həm zəhərləndi, həm də ölənə qədər döyüldü. Uşaq həyatını itirməmişdən bir neçə saat əvvəl Emma Tustinə "işi bitir" mesajı atan ata da suçlu olaraq 21 il həbs cəzasına məhkum edilib. Ögey anaya isə 29 il cəza verilib.

Ölümündən saatlar əvvəl Artur ən azı 34 qram duz yemişdi, bu 1 yemək qaşığı duzdan çoxdur. Yazıq uşaq o qədər zəif idi ki, ögey anası döyəndə heç bir reaksiya verə bilmirdi.

Üstəlik Artur, bu şiddəti ilk dəfə də yaşamırdı. Son aylarında təcrid edildi, zəhərləndi və aç buraxıldı.

Başı, qolları, ayaqları və gövdəsi də daxil 93 yerindən yaralandı, 130 yerində də göyərtilər əmələ gəlib.

Polislər, məhkəmədə uşağın ölümündən əvvəlki son görüntülərini paylaşıb. Təhlükəsizlik kamerası qeydlərində uşağın, "Kimsə məni sevmir, kimsə mənə yemək vermir" deyərək ağladığı məlum olur. Evin salonunda olan kamera görüntüləri keçən ilin pandemiya dövründə çəkilmişdi. Videonun bir yerində uşağın qorxu içində, "Atam məni şüşədən atacaq, atam məni şüşədən atacaq" deyə qışqırması diqqət çəkir.

Ögey ananın təcili çağırış mərkəzini uşağı döydükdən 13 dəqiqə sonra axtardığı və səlahiyyətlilərə "Yıxıldı, başı dəydi, çətin nəfəs alır" dediyi də ortaya çıxıb.

Evə gələn sağlamlıq vəzifəliləri Arturu yerdə uzanmış, üzü dümağ və dodaqları göyərmiş halda aşkarlayıblar. Artur, bir gün sonra xəstəxanada son nəfəsini verdi. Xəstəxanadakı ölüm qeydində yazanlar isə belə idi: "Baş zədəsi, sərt şəkildə başının bir yerə davamlı olaraq vurulması..."

Ancaq hadisənin qan donduran detalları bununla da bitmir. Həkimlər cəsədi yararkən uşağa çoxlu miqdarda duz verilib zəhərləndiyini və bu səbəblə şiddətə qarşı heç bir reaksiya verə bilmədiyini təsbit ediblər. Ögey ana uşağa şiddət tətbiqindən əvvəl 34 qram duz verib.

Məhkəməyə ifadə verən bir həkim isə peşə fəaliyyəti dövründə heç bir zaman belə hadisənin şahidi olmadığını dilə gətirib.

Arturun atası Tomas Hughes polisə verdiyi ifadədə, "Arturu bu vəziyyətə gətirən mənəm, bütün məsuliyyət mənə aiddir. Mənim ücbatımdan anam, atam və Amina cəza çəkməməlidir" deyə bildirib.

**Turan**

## Daha bir serial reytinq qurbanı oldu



**Türkiyədə yayımlanan "Sana söz" serialı final qərarı alıb.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, "Star" telekanalında nümayiş olunan ekran işi dekabrın 14-də 7-ci bölümü ilə izləyicilərinə vida edəcək.**

**Qeyd edək ki, ekran işinin baş rollarını Erkan Petekkaya ilə Nehir Erdoğan canlandırır.**

## Məşhur aktrisa ailə qurub



**Hindistanın məşhur aktrisası Katrina Kaif aktyor Viki Kauşalla ailə qurub.**

**"Qafqazinfo" xəbər verir ki, cütlüyün toyu Rəcəstanda baş tutub. Onlar məşhur otellərin birində 42 nömrə bron ediblər. Katrina ilə özündən 5 yaş kiçik həyat yoldaşı Viki 2019-cu ildən birlikdədilər.**

**Kaif toyundan fotolar paylaşaraq yazıb: "Bizi bu ana gətirən hər şeyə görə yalnız sevgi və minnətdarlıq duyuruq. Bu yeni səyahətə birlikdə başlayarkən sevginizi və xeyir-duanızı diləyirik".**

## Leonardo Di Kaprionun atası aktyor oldu




**Hollivud ulduzu Leonardo Di Kaprionun atası Corc Di Kaprio "Biyanlı pizza" ("Licorice pizza") filmi ilə debüt edərək kamera önünə keçib.**

**Axşam.az xəbər verir ki, bu barədə danışan Leonardo atasının ilk dəfə kiçik bir rol olsa da hansısa ekran işində yer aldığını açıqlayıb. O, hələ filmi izləmədiyini bildirib.**

**Qeyd edək ki, Corc bir neçə gün əvvəl oğlunun baş tutan "Yuxarı baxma" ("Don't look up") filminin premyerasına qatılıb.**



## Burada insanlardan çox pişik yaşayır

### Adanın balaca sakinlərinə inanılmaz hörmət və ehtiram var

**"Tashirojima" adası Yaponiyanın şərqində yerləşən 3 kvadrat kilometr kiçik bir ərazini əhatə edən sevimli yerdir. Onu sevimli edən, şübhəsiz ki, yüzdən çox pişiyin evi olmasıdır. "Şərq" xarici mediaya istinadən xəbər verir ki, Tashirojimada 100-ə yaxın insan yaşayır və pişiklərin sayı insanların sayından çoxdur.**





Dəqiq sayı bilinməsə də, orda təxminən 150 pişiyin olduğu təxmin edilir. Adada yaşayanların 50 faizi 65 yaşdan yuxarı insanlardır. Bu adada pişiklər inanılmaz dəyərə malikdir. Bura it gətirmək və pişikləri narahat etmək qadağandır. Adada pişik məbədi, pişik muzeyi, pişik heykəli və pişik formalı binalar var. Bəs niyə burda bu qədər çox pişik var və onlar niyə adadakı insanlar üçün önəmlidir?

Belə ki, 17-ci əsrdə adada yaşayan siçovullar və digər gəmiricilər ipəkçiliklə məşğul olmağa mane olub. Yerli sakinlər də siçanların sayını azaltmaq üçün vasitə tapıblar. Məhz buna görə də hər bir ada sakini pişik saxlamağa başlayıb və bir müddət sonra onların sayı xeyli artıb. Bu vəziyyət 19-cu əsrə qədər davam edib. Hazırda adada pişiklərin artımı əvvəlki qədər çox olmasa da, zamanla insanların köç etməsi səbəbindən pişiklərin sayı hələ də insan sayından çoxdur. Burdakı pişiklərin xüsusi əhəmiyyət kəsb etməsinin digər səbəbi isə onların şans, bolluq və pul gətirdiyinə inanılmasıdır.

**Günəş Mərd**

## Koronavirusu ən çox yayan kişilərdir

### Alimlər: "Rəqqaslar, musiqiçilər, aktyorlar, ansambl üzvləri kovidi daha çox yayanlardır"



**Kolorado universitetinin alimləri koronavirus və xüsusən omikron ştammının yayıcıları və daşıyıcıları daha çox kişilər olduğunu açıqlayıb.**

Medicina.az xəbər verir ki, kişilər qadınlara nisbədən daha ağır yoluxur və gec sağalır.

Həmişə günahkar qadınlar olmur. Kovid məsələsində kollektiv yayıcılar kişilrədir. Kim kovidi ağır keçirir, kim daha çox ölür: kişilər.

Yeni elmi iş "Virusun bioaerozollarının ətrafa təsirinin azaldılması" adlanır.

Nəticələr göstərib ki, yaradıcı insanlar və küçə tamaşalarında, dərnəklərdə olan kişilər kovidə daha çox yoluxub, nəinki digərlər. Rəqqaslar, musiqiçilər, aktyorlar, ansambl üzvləri koronanı daha çox yayanlardır.

75 könüllü üzərində aylarla aparılan eksperiment göstərdi ki, çox danışmaq və oxumaqdan ibarət peşələrdə işləyənlər daha çox virus hissəciyi ifraz edir, nəinki uşaqlar.

- Peşəsi ilə əlaqədar heç danışmayan, otaqda tək səssiz qalanlar az yoluxur
- Kişilər virusu qadın və uşaqlardan daha çox yayırlar.

## Gələn ildən insan beyninə çip yerləşdiriləcək

### İlk pasiyentlər onurğa beyni ağır zədələnmiş xəstələr olacaq




**İlon Maska məxsus olan Neuralink şirkəti 2022-ci ildə insan beyninə bu şirkətin çiplərinin implantasiyasına başlamağı planlaşdırır.**

Beyinlərinə çiplər yerləşdiriləcək ilk pasiyentlər onurğa beyni ağır zədələnmiş xəstələr olacaq. Neuralink şirkəti tərəfindən yaradılan çiplər insanların beyninə bu orqanın aktivliyini qeydə almaq və stimulyasiya etmək üçün implantasiya olunacaq.

Çipin tibbdə, məsələn, onurğa beyninin ciddi zədələrinin və nevroloji pozuntuların müalicəsi üçün tətbiq edilməsi nəzərdə tutulur. Mask "The Wall Street Journal" nəşrinin Direktorlar Şurasının sammitində birbaşa efirdə müsahibə zamanı şirkətin 2022-ci il üçün planları barədə sualın cavabında bildirib ki, Neuralink texnologiyası meymunlar üzərində sınaqdan keçirilib. Ekspertlər bu çipin təhlükəsiz və etibarlı olduğunu, habelə zəruri hallarda çipi təhlükəsiz çıxarmaq mümkün olduğunu təsdiq ediblər.

Neuralink şirkəti beynin interfeysi texnologiyasının yaradılması ilə məşğul olan yeganə şirkət deyil. Bu il iyul ayında 20 nəfər əməkdaşı olan Synchron biotexnologiya firması həmin çiplərin insanlar üzərində testlənməsinə başlamaq üçün Qida məhsullarının və dərman vasitələri-